# Zəngəzur dəhlizi: Ermənistan nədən qorxur?




**Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, Naxçıvana birbaşa yol açacaq dəhliz məsələsinin sülh danışıqlarının paketindən çıxarılması mövzusu gündəmdən düşmür. Bakının bu qərarını şərtləndirən hansı amillərdir? 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda öz əksini tapmış kommunikasiyaların qarşılıqlı şəkildə açılmasını nəzərdə tutan maddəyə rəsmi İrəvan da özünün razılığını bildirmişdi.**

(ardı 4-cü səhifədə)

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 174 (30578) 16 avqust 2024-cü il, cümə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# COP29 yeni texnologiyalara keçidi gündəmə gətirir



Səhifə ⇨ 8

## Seçki bülletenlərinin çapına başlanılıb



**Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb.**

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov avqustun 15-də Komissiya üzvləri və Katibliyin təmsilçiləri ilə birlikdə çap prosesinin gedişi və bununla bağlı yaradılmış şəraitlə tanış olub.

MSK sədri seçki bülletenlərinin əsas seçki sənədlərindən biri olduğunu və vətəndaşların öz konstitusion hüquqlarını reallaşdırmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O diqqətə çatdırıb ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada çap edilib başa çatdırılmalı, bütün proses ərzində Seçki Məcəlləsinin müvafiq müddəalarına dəqiqliklə əməl olunmalıdır. M.Pənahov, həmçinin Seçki Məcəlləsinə əsasən seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblərin MSK-nın qərarı ilə müəyyən olunduğunu və Milli Məclisə seçkilərdə 6 milyon 516 min 567 seçki bülleteni hazırlanacağını bildirib. MSK-nın sədri seçki bülletenlərinin çapı və aidiyyəti üzrə aşağı seçki komissiyalarına paylanılması ilə bağlı zəruri tövsiyələrini də diqqətə çatdırıb.

Proseslə tanışlıqdan sonra MSK sədri Məzahir Pənahov həm seçki bülletenlərinin çapı, həm də ümumiyyətlə Milli Məclisə seçkilərə hazırlıqların gedişi barədə media mənsublarına açıqlama verib, fikirlərini bölüşüb və jurnalistlərin suallarını cavablandırıb.

Qeyd etmək lazımdır ki, seçki bülletenlərinin çap prosesi zəruri təhlükəsizliyin təmin edilməsi şərti ilə beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları, media nümayəndələri və seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər üçün tamamilə açıq həyata keçirilir.

***XQ***

## Haylar odla oynayırlar

### İrəvan sülhdən yayınmaq üçün hətta ATƏT-in Minsk qrupunu "diriltməyə" çalışır



**"ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Maltanın xarici, Avropa işləri və ticarət naziri İan Borqu qəbul edərkən bildirmişdi.**

Dövlətimizin başçısı qeyd etmişdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davamına xidmət göstərmişdir.

Artıq Ermənistan–Azərbaycan münaqişəsinin tarixdə qaldığını və mövcud olmadığını vurğulayan Prezident İlham Əliyev ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğvinin vaxtının çatdığını məhz buna görə bildirmişdi. Dövlətimizin başçısı əlavə etmişdi ki, ölkəmiz bu məsələni qaldırıb və Ermənistan tərəfinin də razılığı üçün hər hansı səbəb görmür. Ancaq Ermənistanın xarici işlər nazirliyindən "Azatutyun" radiostansiyasına bildirilmişdir ki, rəsmi İrəvan Bakının təklifini qəbul etmir. Nəinki qəbul etmir, eyni zamanda, canını tapşırmış ATƏT-in Minsk qrupunun "dirilməsində" maraqlıdır.

(ardı 4-cü səhifədə)

## Azərbaycanda 2,5 mindən çox minik avtomobili istehsal edilib



Səhifə ⇨ 7

## Meymunçiçəyi virusu: Bizə gəlib çatacaqmı?!



**Yay fəsli ilə əlaqədar ölkələrarası turizm marşrutları genişlənib. Ölkəmizə gəliş-gedişin artması yoluxucu xəstəliklərin yayılma mənbəyi ola bilərmi? Son illərdə Afrikada və Qərb ölkələrində yayılmış meymunçiçəyini turistlər Azərbaycana da gətirə bilərlərmi?**

Bu sualların cavabında Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov XQ-yə bildirdi:

– 2022-ci ildə Avropadan sonra meymunçiçəyi virusuna ilk dəfə Amerika Birləşmiş Ştatlarında rast gəlinib. İspaniyada 20-dən çox adamda meymunçiçəyi virusunun əlamətləri olduğu aşkar olunub. Portuqaliyada da vəziyyət eyni qiymətləndirilib. Böyük Britaniyada yoluxanların ümumi sayı 10 nəfəri keçib.

(ardı 11-ci səhifədə)

# Paşinyanın "sərhəd dirəyi" maketi

### Yaxud erməni baş nazirin şagirdlərə dediklərinə sözardı




**Ermənistan baş naziri Nikol Paşinyan özünün iş kabinetində orta məktəb şagirdlərinə Azərbaycanla ilk sərhəd dirəyinin maketini göstərib. Bəri başdan deyək ki, Nikolun bu hərəkəti, əslində, təqdir olunmalıdır. Amma ilk baxışdan. Erməni baş nazir şagirdlərə başqa nələrdən danışıb, bu barədə, eləcə də onun nəyə görə səmimi olmadığından söz açacağıq. Əvvəlcə bəzi məqamları vurğulayaq.**

Ermənilərdə həmişə türklərə qarşı patoloji nifrət olub. Bu nifrətin etimologiyasına nəzər salmaq üçün tarixə üz tutaq. Məlum olduğu kimi, ermənilər yaşadığımız Cənubi Qafqaza köçürülüblər. Əlbəttə, bunadək, yəni 1830-cu il köçürülməsinə qədər də regionun ayrı-ayrı hissələrində onlara təkəm-seyrək rast gəlinib. Bu azlıq həmişə çoxluğa malik türklərin yanında kölgədə qalıb, əsasən məişət işlərində çalışaraq ömür sürüb. Zamanla həmin azlıqda psixoloji natarazlıq yaranıb. Özlərinə sual veriblər: Nəyə görə türklər bizdən üstün olmalıdırlar?

Haşiyəyə çıxaq ki, belə bir psixoz nasist Almaniyasının lideri Adolf Hitlerdə də olub. Hitler hələ gənc ikən Avstriyada və Almaniyada yəhudilərin üstün mövqedə dayandıqlarını, başlıca şəhərlərin hər birində onlara məxsus bahalı mağazaların, qızıl-zinət əşyaları dükanlarının mövcudluğunu görüb. Bir millətçi kimi onda bu duruma qarşı qıcıq yaranıb. Bu qıcıq Hitlerin hakimiyyətə gəlişindən sonra Almaniyanın dövlət siyasətinə çevrilib və yəhudilərə qarşı total təqiblərə başlanılıb. Daha sonra yaşanan faciələr, yəhudi soyqırımı isə hər kəsə yaxşı məlumdur.

(ardı 4-cü səhifədə)

## Kursk yürüşü hara aparır?



Səhifə ⇨ 11

## Konqo Respublikasının Prezidenti Zati-aliləri cənab Deni Sassu Nqessoya

**Hörmətli cənab Prezident!**

Konqo Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Bu gün Azərbaycan–Konqo münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Aprel ayında Azərbaycana səfəriniz ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinə yeni təkan vermişdir. Eyni zamanda bu yaxınlarda COP29-un müəyyən edilmiş Prezidentinin Konqoya səfəri iqlim dəyişmələri ilə mübarizə sahəsində ölkələrimizin tərəfdaşlığının bariz nümunəsidir.

İnanıram ki, Azərbaycan ilə Konqo arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, çoxtərəfli müstəvilərdə, o cümlədən Bakıda təşkil ediləcək COP29 çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Konqo xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2024-cü il**

## “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387) 2-ci hissəsinin iyirmi birinci–iyirmi dördüncü abzasları müvafiq olaraq iyirmi ikinci–iyirmi beşinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda iyirmi birinci abzas əlavə edilsin:

“həmin Məcəllənin 251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.16-cı, 446.2-2-ci və 448.6-3-cü maddələrində “orqan (qurum)” dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2024-cü il**

## “Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 166 (Cild I); 2024, № 3, maddə 264, № 4, maddə 388) 2.15-ci bəndində “Bakı Nəqliyyat Agentliyi” sözləri “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 147 nömrəli, 23 iyul tarixli 153 nömrəli, 24 iyul tarixli 155 və 156 nömrəli, 2 avqust tarixli 170 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissə üzrə:

2.1.1. 4.51-ci bənddən “Bakı Nəqliyyat Agentliyi,” sözləri çıxarılsın;

2.1.2. 4.53-1-ci bənddə “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (svetoforlar və yol nişanlarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla)” sözləri “svetoforlara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, yol nişanları, nişanlama xətləri və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla)” sözləri ilə əvəz edilsin;

2.1.3. 4.54-cü bənddə “Bakı Nəqliyyat Agentliyi, sərnişin və yük daşımaları sahəsində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində sərnişin daşımaya münasibətdə isə Bakı Nəqliyyat Agentliyi” sözləri “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, eləcə də sərnişin və yük daşımaları sahəsində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin;

2.2. 5-ci hissə üzrə:

2.2.1. 5.27-1-ci bəndə “işlərə” sözündən sonra “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində” sözləri əlavə edilsin, həmin bənddə “Nəqliyyat Nazirliyi,” sözləri “Nəqliyyat Nazirliyi və” sözləri ilə əvəz olunsun və həmin bənddən “, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə Bakı Nəqliyyat Agentliyi” sözləri çıxarılsın;

2.2.2. 5.30-1-ci bənddə “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə Bakı Nəqliyyat Agentliyi” sözləri “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin;

2.2.3. 5.32-1-ci bəndə birinci halda “və ya” sözlərindən sonra “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində” sözləri əlavə edilsin və həmin bənddən “, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Bakı Nəqliyyat Agentliyi” sözləri çıxarılsın;

2.2.4. 5.32-2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“5.32-2. həmin Məcəllənin 350.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə svetoforlara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, yol nişanları, nişanlama xətləri və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;”;

2.2.5. 5.34-1-ci və 5.34-2-ci bəndlərdə “Bakı Nəqliyyat Agentliyi” sözləri “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli, 16 iyul tarixli 147 nömrəli, 23 iyul tarixli 153 nömrəli və 24 iyul tarixli 155 nömrəli fərmanları) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 17-ci hissəsi ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.0.14-cü yarımbənddən “Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla” sözləri çıxarılsın;

4.2. 3.0.16-cı yarımbənddə “qaydası, proqramı və müddəti ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək” sözləri “qaydasını, proqramını və müddətini müəyyən etmək” sözləri ilə əvəz edilsin;

4.3. aşağıdakı məzmunda 3.0.16-1–3.0.16-4-cü yarımbəndlər əlavə edilsin:

“3.0.16-1. tabeliyində olan qurum vasitəsilə yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək, həmçinin aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək;

3.0.16-2. Bakı şəhərinin inzibati ərazisində parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarəti təmin etmək;

3.0.16-3. yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy verilməsini təmin etmək;

3.0.16-4. avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, metro çıxışlarının, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy verilməsini təmin etmək;”.

**5.** “Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 aprel tarixli 1902 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 653 (Cild I) 1–3-cü hissələri ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 150 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 13-cü hissənin “Göstərdiyi xidmətlər” sütununun 5-ci abzasından “Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, Azərbaycan Respublikasının digər inzibati ərazilərində” sözləri çıxarılsın;

6.2. 19-cu hissə ləğv edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 iyun tarixli 91 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 1 – “Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı”nın 29.31-ci bəndi ləğv edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli və 14 iyun tarixli 109 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin Siyahısı”nın 10-cu hissəsi ləğv edilsin.

**9.** “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 209-VIQD nömrəli Qanununun tətbiqi və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 yanvar tarixli 1247 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 17 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**10.** “Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1463 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1107 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) 3.1-ci bəndindən “(Bakı şəhərinin inzibati ərazisində ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmə və nəzarət istisna olmaqla)” sözləri çıxarılsın.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.1-ci bənddən “(Bakı şəhərinin inzibati ərazisində ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmə və nəzarət istisna olmaqla)” sözləri çıxarılsın;

11.2. 2.1.3-cü yarımbəndə “sifarişinin” sözündən sonra “(Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımalar üzrə dövlət sifarişi istisna olmaqla)” sözləri əlavə edilsin;

11.3. aşağıdakı məzmunda 2.1.5-1-ci yarımbənd əlavə edilsin:

“2.1.5-1. yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək və aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək;”;

11.4. 3.1.14-cü yarımbəndə “edilməsi” sözündən sonra “, habelə səmərəliliyinin və keyfiyyətinin artırılması” sözləri əlavə edilsin;

11.5. 3.1.22-ci yarımbəndə “obyektlərinin” sözündən sonra “(Şuşa şəhərinin ərazisi istisna olmaqla)” sözləri əlavə edilsin;

11.6. aşağıdakı məzmunda 3.1.25-1–3.1.25-11-ci yarımbəndlər əlavə edilsin:

“3.1.25-1. Bakı şəhərinin inzibati ərazisində müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərini müəyyənləşdirmək, onları quraşdırmaq və idarə olunmasını təmin etmək;

3.1.25-2. taksi minik avtomobilləri üçün nişanlanma xətləri əsasında duracaq yerlərini müəyyənləşdirmək və idarə olunmasını təmin etmək;

3.1.25-3. Bakı şəhərinin inzibati ərazisində dövlət avtomobil yollarında parklanma yerlərini müəyyənləşdirmək, onları təşkil və idarə etmək, bələdiyyə və özəl avtomobil yollarında parklanma yerlərinin təşkilində iştirak etmək, habelə parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarət etmək və parklanma qaydalarını pozmuş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görmək, o cümlədən foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılmasını təmin etmək;

3.1.25-4. Bakı şəhərinin inzibati ərazisində nəqliyyat qovşaqlarının (nəqliyyat mübadilə mərkəzlərinin), Agentliyin yeni avtomobil duracaqlarının (qarajlarının), həmçinin mühafizə olunan duracaqlarının yaradılması (layihələndirilməsi, tikilməsi) ilə bağlı tədbirlər görmək və vəziyyətinə nəzarəti həyata keçirmək, habelə öz balansında olan avtomobil duracaqlarını (qarajlarını) və mühafizə olunan duracaqlarını idarə etmək;

3.1.25-5. piyada-yol infrastrukturunun təşkilində iştirak etmək;

3.1.25-6. yol nişanlarının, nişanlanma xətlərinin və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinin yerlərini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə, bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş normalara uyğun olaraq müəyyənləşdirmək və ya dəyişdirmək, onların quraşdırılmasına (çəkilməsinə) və lazımi qaydada saxlanılmasına nəzarət etmək;

3.1.25-7. avtomobil yollarının normativ hüquqi aktlarla və beynəlxalq standartlarla müəyyən edilmiş norma və tələblər səviyyəsində yol nişanları, nişanlanma xətləri və yol hərəkəti təşkilinin digər texniki vasitələri ilə təchiz edilməsi vəziyyətinin araşdırılması məqsədilə mütəmadi olaraq monitorinqlər həyata keçirmək və yolların zəruri yol hərəkəti təşkilinin texniki vasitələri ilə təchiz edilməsi məqsədilə tədbirlər görmək;

3.1.25-8. yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy vermək;

3.1.25-9. avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, metro çıxışlarının, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy vermək;

3.1.25-10. avtomobil yollarında tıxac yaranması səbəblərini araşdırmaq, təhlillər aparmaq və müvafiq təkliflər vermək;

3.1.25-11. avtomobil yollarında tıxac yaranmaması və nəqliyyat axınının tənzimlənməsi üçün ticarət, iaşə, sənaye və tikinti obyektlərinə, habelə həmin obyektlərdən yükdaşımaların iş rejiminə dair Nəqliyyatı Əlaqələndirmə Şurasına təkliflər hazırlamaq;”;

11.7. 3.1.28-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.28. müvafiq sahədə ətraf mühitin mühafizəsinin təmin edilməsinə dair tələblərə riayət olunmasına fəaliyyət istiqamətlərinə uyğun olaraq nəzarət etmək, həmçinin ətraf mühitin mühafizəsinə dair aidiyyəti dövlət orqanlarına təkliflər vermək;”;

11.8. aşağıdakı məzmunda 3.2.8-1–3.2.8-3-cü yarımbəndlər əlavə edilsin:

“3.2.8-1. reysdənkənar hallarda saxlanılması üçün müvafiq duracaqları olmayan ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşımaları həyata keçirən nəqliyyat vasitələrinin Agentliyin avtomobil qarajlarında və istehsalat bazalarında müqavilə əsasında ödənişli qaydada saxlanılması üçün şərait yaratmaq;

3.2.8-2. ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşımanı təşkil edən və nəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, eləcə də onların sürücülərinin reysqabağı tibbi müayinəsi üçün müvafiq şəraiti olmayan hüquqi şəxslərə və ya fərdi sahibkarlara belə yoxlama və müayinələrin Agentlik tərəfindən müqavilə əsasında ödənişli qaydada həyata keçirilməsi üçün şərait yaratmaq;

3.2.8-3. sərnişinlərin gediş haqqını ödəməsini asanlaşdırmaq üçün dayanacaq məntəqələrində ödəniş alətlərinin quraşdırılmasını təmin etmək;”.

**12.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I); 2024, № 2, maddələr 147, 158; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli, 24 iyul tarixli 155 və 156 nömrəli, 2 avqust tarixli 170 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə”yə əlavə – “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi”nin fəaliyyətində iştirak edən dövlət orqanlarının (qurumlarının) Siyahısı”nın 7-ci hissəsindən “Bakı Nəqliyyat Agentliyi qismində Bakı Şəhər İcra Hakimiyyəti, həmçinin digər” sözləri çıxarılsın.

**13.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276 (Cild I) ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı”nın “4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 4.4.35-ci yarımbəndinin “İcraçı orqanlar” sütununda “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin və həmin sütundan “Bakı Nəqliyyat Agentliyi,” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2024-cü il**

## “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında” və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1186-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında” və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1186-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 221.4.9-cu maddəsinin ikinci hissəsinin birinci cümləsində və 221.4.10-cu (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 221.4.9-cu maddəsinin ikinci hissəsinin birinci cümləsində və 221.4.10-cu maddəsində birinci halda “orqan (qurum)” dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 221.4.10-cu maddəsində ikinci halda “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin I hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 5-ci maddəsinin I hissəsinin 4-cü bəndində “orqan (qurum)” dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 3.2.1-ci maddəsində, 7.5-ci maddəsinin birinci cümləsində, 7.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 7-1.5-ci, 9.3-cü maddələrində və 27.3-cü maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun 3.2.1-ci, 7-1.5-ci maddələrində və 27.3-cü maddəsinin üçüncü cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 7.5-ci maddəsinin birinci cümləsində, 7.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 9.3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında” və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1186-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 87 nömrəli və 12 iyun tarixli 95 nömrəli fərmanları) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə “221.4.13-cü maddəsinin birinci cümləsində” sözləri “221.4.9-cu maddəsinin ikinci hissəsinin birinci cümləsində, 221.4.10-cu maddəsində (hər iki halda), 221.4.13-cü maddəsinin birinci və ikinci (birinci halda) hissələrində” sözləri ilə əvəz edilsin;

3.2. 1.9-cu bənddən “, 221.4.10-cu (ikinci halda)” sözləri çıxarılsın;

3.3. 1.10-cu bəndə “207.7-ci (üçüncü halda)” sözlərindən sonra “, 221.4.10-cu (ikinci halda)” sözləri əlavə edilsin;

3.4. 1.25-ci bənddə “, 221.4.9-cu və 221.4.10-cu (birinci halda) maddələrində” sözləri “maddəsində” sözü ilə, “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

3.5. 1.28-ci bənddə “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

3.6. 1.35-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.35. həmin Məcəllənin 221.4.7-ci maddəsinin birinci cümləsində, 221.4.9-cu maddəsinin ikinci hissəsinin birinci cümləsində, 221.4.10-cu (birinci halda) maddəsində və 221.4.13-cü maddəsinin birinci və ikinci hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;”.

**4.** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 156 nömrəli və 2 avqust tarixli 170 nömrəli fərmanları) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə “Qanununun” sözündən sonra “5-ci maddəsinin I hissəsinin 4-cü bəndində,” sözləri əlavə edilsin;

4.2. 2.11-ci bənd ləğv edilsin;

4.3. 2.36-2-ci bəndə “Qanunun” sözündən sonra “5-ci maddəsinin I hissəsinin 4-cü bəndində,” sözləri əlavə edilsin.

**5.** “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bənddə “6.5-ci, 9.2-1-ci (hər iki halda)” sözləri “3.2.1-ci, 6.5-ci maddələrində, 7.5-ci maddəsinin birinci cümləsində, 7.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 7-1.5-ci, 9.2-1-ci (hər iki halda), 9.3-cü” sözləri ilə, “dördüncü cümləsində” sözləri “üçüncü və dördüncü cümlələrində” sözləri ilə əvəz edilsin;

5.2. 2.2-ci bənd ləğv edilsin;

5.3. 2.3-1-ci bənddə “maddəsində” sözü “, 3.2.1-ci, 7-1.5-ci maddələrində, 27.3-cü maddəsinin üçüncü cümləsində” sözləri ilə əvəz edilsin;

5.4. 2.3-3-cü bənddə “, 9.2-1-ci (ikinci halda)” sözləri “maddələrində, 7.5-ci maddəsinin birinci cümləsində, 7.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 9.2-1-ci (ikinci halda), 9.3-cü” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2024-cü il**

## “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Çin-Avropa Dəmiryolu Ekspresi üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının inkişafı haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 1-də Bakı və Pekin şəhərlərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Çin-Avropa Dəmiryolu Ekspresi üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının inkişafı haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1033 (Cild I) ilə təsdiq edilmiş “Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı”na aşağıdakı məzmunda 3-1-ci və 7-ci hissələr əlavə edilsin:

“3-1. “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti – “Naxçıvan TV” televiziya yayımçısı.”;

“7. “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti – “Naxçıvan Radiosu” radio yayımçısı.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”nin 5.4-cü bəndinə “azad edilən” sözlərindən sonra “birinci müavini və” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 avqust 2024-cü il**

# MDB-nin Müşahidə Missiyası Baş Prokurorluqda



**Avqustun 15-də Baş prokurorun birinci müavini Elçin Məmmədov Müstəqil Dövlətlər Birliyinin Müşahidə Missiyasının üzvü, MDB-nin Baş katibinin müavini Nurlan Seytimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Elçin Məmmədov sentyabrın 1-də təyin olunmuş növbədənkənar parlament seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, seçicilərin azad şəkildə öz iradələrini ifadə etmələri məqsədilə görülən işlərdən danışıb. O, seçki qanunvericiliyinin pozulması ilə bağlı müxtəlif mənbələrdən Baş Prokurorluğa daxil olan, habelə internet məkanı və media resurslarında aparılmış monitorinqlər nəticəsində əldə olunmuş məlumatların qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada araşdırılması, operativliyin təminatı və aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyətin təşkili məqsədilə İşçi qrupun yaradılması barədə qonaqlara məlumat verib.

Nurlan Seytimov seçkilərin yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını, seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğun olduğunu və seçkiqabağı hazırlıq prosesinin müsbət qiymətləndirdiklərini qeyd edib.

***XQ***

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

**Avqustun 15-i saat 18:10 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

***XQ***

# Naxçıvan Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclası

**Avqustun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclasında “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan MR qanunlarında dəyişiklik edilməsi müzakirəyə çıxarılıb.**



Ali Məclisin sədr müavini Anar İbrahimov hər iki qanun layihəsi barədə məlumat verib. Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihələri haqqında təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” qanun layihəsi ilə əlaqədar maliyyə naziri Həsən İsmayılov çıxış edib. Sonra qanun səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadə “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” qanun layihəsi ilə əlaqədar çıxış etdikdən sonra bu qanun da səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran sonuncu məsələ - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi barədə Anar İbrahimov qeyd edib ki, 22 iyul 2024-cü il tarixdə keçirilmiş Mərkəzi Seçki Komissiyasının iclasında komissiyanın sədri Əliyev Əjdər Zahid oğlu öz ərizəsi əsasında sədr vəzifəsindən azad edilib. Sədr müavini Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd olaraq Orucəliyev Ramil Əli oğlunu təklif edib.

Namizəd haqqında məlumat verilib və Ramil Orucəliyevin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü seçilib.

***XQ***

# HHQ-nin helikopter təlim-məşq uçuşları

**Cari ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib.**



Müdafiə Nazirliyindən verilən məlumata görə, şəxsi heyətə qarşıya qoyulan tapşırıqlar və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanılıb.

Təlim-məşq uçuşlarının planına uyğun olaraq, bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən helikopterlər gündüz və gecə vaxtı havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, eləcə də digər fəaliyyətlər üzrə tapşırıqları yerinə yetiriblər.

Döyüş hazırlığı və praktiki vərdişlərin daha da artırılması məqsədilə keçirilən təlim-məşq uçuşlarında hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

***XQ***

# Zəngəzur dəhlizi: Ermənistan nədən qorxur?

(əvvəli 1-ci səhifədə)

İndi bu maddə niyə sülh danışıqlarının digər şərtlərindən daha çox əhəmiyyətə malik olub? Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyovun məlum açıqlamasını rəsmi Bakının Zəngəzur dəhlizindən imtinası kimi şərh edənlər də var. Suallarımıza Azərbaycan Prezidentinin katibliyinin sabiq rəhbəri, dövlət başçısının keçmiş köməkçisi, tanınmış politoloq Eldar Namazov aydınlıq gətirir.

### Bütövlükdə kommunikasiyaların açılması təxirə salınır



Bakının belə bir addım atmasını vacib qərar kimi dəyərləndirən politoloq Eldar Namazov mövzuya kifayət qədər praqmatik yanaşır: "Təsəvvür edin ki, bu qərarı Azərbaycanla yanaşı, həm Ermənistanda, həm Rusiyada, həm də başqa ölkələrdə ciddi müzakirə edirlər. Bəri başdan deyim ki, bu qərar Azərbaycanın sülh platformasında mövqelərini daha da gücləndirir. Bu addımı ilə Bakı onsuz da çətin durumda olan İrəvanı bir az da çətin vəziyyətə salmış oldu. Çünki bu qərar Ermənistanın gələcəyə yönəlik planları üçün böyük problemlər yaradır. Burada söhbət nədən gedir? Əslində, burada söhbət bir hadisədən getmir. Yəni, sülh sazişinin mətnindən təkcə Zəngəzur dəhlizi deyil, bütövlükdə, kommunikasiyaların açılması məsələsi çıxarılır. Əgər kommunikasiya mövzusu gündəmdən çıxarılırsa, hamı belə düşünür ki, bu, Azərbaycanın ziyanına ola bilər. Amma məsələyə geniş aspektdən baxmaq lazımdır. Eyni vaxtda bir neçə hadisə baş verir".

Tanınmış politoloq baş verən hadisələri təsnifatlandırarkən diqqəti tərəflər üçün kommunikasiya nöqtələrinin vacibliyinə yönəltdi: "Ondan başlayaq ki, Azərbaycan və Ermənistan arasında üç kommunikasiya nöqtəsi ciddi müzakirə predmeti idi. Biz daha çox Zəngəzur dəhlizi barədə danışırdıq. Bəli, bu, bizim üçün vacib layihədir. Ermənilər isə Culfaya dəmir yolu xəttinin açılması və oradan İran dəmir yolları ilə birləşmələri barədə danışırdı. Bu zaman özünü, sanki, Şimal–Cənub marşrutunun vacib oyunçusuna çevriləcəyi ilə bağlı bəyanatlar verirdi. Axı, bu dəhlizdən Hindistan, İran istifadə edəcək və Culfa vasitəsilə marşrut Ermənistana çıxacaqdı. Erməni mediası bu haqda gecə-gündüz yazırdı. Onlar, eyni zamanda, İcevan–Qazax dəmir yolunun açılmasını da istəyirdilər. İndi belə çıxır ki, bu məsələlərin üçü də təxirə salınır. Elçin Əmirbəyovun müsahibəsindən hiss olunurdu ki, elə bil, ermənilərin qarşısına müəyyən bir yol xəritəsi qoyulub. Xəritədə İrəvana nə göstərilir? Əvvəlcə öz konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını çıxart. Ardınca Azərbaycana qarşı yalan–böhtanla dolu iddialarından əl çək. Daha sonra bəzi qanunlarında dəyişiklik et. Misal üçün, Alma-Ata Bəyannaməsinin ratifikasiyası və MDB-nin yaradılması ilə bağlı qanunlarda İrəvan öz düzəlişlərini etmişdi. Həmin düzəlişin mahiyyəti o idi ki, Dağlıq Qarabağ artıq müstəqil dövlətdir və o, MDB-yə müstəqil şəkildə daxil ola bilər. Onlar bütün bunları təmizləməlidirlər. Məhz ondan sonra Ermənistanla sülh sazişi imzalana bilər. Kommunikasiyaların açılması məsələsinə də o zaman baxıla bilər".

### 2027-ci ili İrəvan özü gözləməli olacaq

"Hələ bu ilin əvvəllərində mətbuatda belə yazılar gedirdi ki, Paşinyan dörd aya referendum keçirəcək və konstitusiyadan




həmin bədnam bənd çıxarılacaq. Sonra fikrini dəyişdi, ya da xaricdən təzyiqlər edildi və ermənilərin baş naziri yeni konstitusiyanın hazırlanması barədə tapşırıq verdiyini açıqladı. Yəni, deyilən müddəaları köhnə konstitusiyadan çıxarmaq daha asan olardı. Paşinyan hökumətə 2026-cı ilin sonuna qədər yeni konstitusiyanın layihəsini hazırlamaq üçün vaxt verdi.

Buradan bu məntiq çıxır ki, referendum ən tezi 2027-ci ildə keçirilə bilər. Yalnız ondan sonra Bakı İrəvanla kommunikasiya məsələlərini müzakirə edə biləcəkmiş. Faktiki olaraq, rəsmi İrəvanın qabağına yeni yol xəritəsi qoyulur və deyilir ki, əvvəlcə qanunvericiliyinə əl gəzdir, Azərbaycanla sülh sazişini imzala, sonra bu məsələlərə baxarıq. Bu, nə deməkdir?

Kommunikasiyaların işə düşməsi məsələsində Azərbaycanın bir neçə məqsədi var. Birincisi, Orta dəhlizi daha da genişləndirmək, onu çox güclü beynəlxalq layihəyə çevirmək. Çinlə Avropa arasında mal və məhsulların xeyli hissəsi oradan keçməlidir. Bu isə Azərbaycana böyük dividendlər gətirəcək. İkincisi, Şimal– Cənub dəhlizinin ölkəmizin ərazisindən keçməsini istəyirdik. Amma ermənilər bu dəhlizin Ermənistandan keçməsini arzulayırdılar. Biz deyirik ki, əvvəlcə Astara–Rəşt yolunun qalan hissəsini inşa edək, sonra dəhliz avtomatik açılır. Fəqət İran tərəfi bu işi çox uzadırdı. Bakı hətta maliyyə vəsaiti də təklif etmişdi. Əvvəlcə razılaşdılar, sonra işi yenə uzatdılar. Bu vacib məsələlərdən sonra Zəngəzur dəhlizi gəlirdi. Yəni, biz həm Orta dəhlizi genişləndirmək, həm Şimal–Cənub marşrutunun əsas oyunçusu olmaq, həm də Zəngəzur dəhlizini açmaq istəyirdik. Hazırda vəziyyət elədir ki, Ermənistan yaxın 3-4 ildə yalnız daxili məsələləri ilə məşğul olmalıdır. Azərbaycan isə Avropa İttifaqı və Çinin dəstəyi ilə və Gürcüstanla birlikdə Orta dəhlizi daha da gücləndirəcək, İran ərazisindən Araz dəhlizi vasitəsilə Türkiyəyə ikinci yolu açacaq. Təəccüblü deyil ki, Elçin Əmirbəyovun məlum müsahibəsindən bir gün sonra İran bəyan etdi ki, Şimal–Cənub marşrutu Azərbaycandan keçəcək".

### Ermənistan Şimal–Cənub dəhlizindən kənarda qalır

Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Tehrana və Bakıya səfərlərinə toxunan politoloq buna məhz deyilən bucaqdan baxmağın vacibliyini vurğuladı: "Bakıya səfərində Şoyqunun yanında kim oturmuşdu? İqor Livitin. On ildən çox nəqliyyat naziri işləmiş Livitin son illər Rusiya Prezidentinin beynəlxalq dəhlizlər üzrə köməkçisidir. Onun Şoyqunu Tehran və Bakıya səfərlərində müşayiət etməsinin bir məqsədi vardı: Astara–Rəşt marşrutu öz həllini tapır və Azərbaycan Rusiya, İran və dünya arasında böyük rola malik Şimal–Cənub dəhlizinin əsas oyunçularından birinə çevrilir. Bu qərarlar eyni vaxtda elan edildi. Deməli, Azərbaycan bundan sonra istədiyi bütün dəhlizləri açır, genişləndirir və qalır Zəngəzur dəhlizi. Bakı bu məsələyə mütləq qayıdacaq. Əgər Azərbaycanın qarşısında dörd böyük layihə varsa, onlardan hansının birinci, yaxud ikinci, üçüncü gələcəyi hadisələrin gedişatından asılı olacaq. Bizim üçün bunun fərqi yoxdur. Vəziyyət belə gətirib ki, ilk növbədə, Şimal–Cənub layihəsini təsdiqləyirik və bu marşrut Ermənistandan deyil, Azərbaycandan keçir. Üstəlik, Araz dəhlizi vasitəsilə Türkiyəyə yolumuzu da açırıq. Bakı–Tbilisi–Qars dəmir və avtomobil yollarını da genişləndiririk və nəhayət, sonda Zəngəzur dəhlizini də işə salırıq. Azərbaycan bu planların heç birindən imtina etmir. Sadəcə olaraq, həmin planları realizə etmək cədvəlini tərtib etmişik və real vəziyyətə uyğun hərəkət edəcəyik. Ermənistan isə hər şeydən məhrum olur. Dediyimiz hədəflərə çatandan sonra Ermənistanı hansı dəhlizə buraxmaq məsələsini müzakirə edə bilərik".

Yaranmış vəziyyətdə Qərbin, o cümlədən ABŞ-nin mövqeyini dəyərləndirməyə çalışan E.Namazov Vaşinqtonun dəhlizlərin açılmasında maraqlı olduğunu və Ermənistanın da onlara qoşulmasını arzuladığını bildirdi: "ABŞ Dövlət katibinin müavini Ceyms O`Brayn İrəvana səfərində, ardınca Konqresdə bununla bağlı çıxış edərkən açıq şəkildə dedi ki, belə bir şans ermənilərə neçə nəsildən bir verilə bilər. O, Ermənistanı bu şansdan istifadə etməyə çağırdı. Bəs, sonra nə baş verdi? Paşinyan Tehranda seçilmiş yeni prezidentin andiçmə mərasimində iştirak etdi, İranın Ali Rəhbəri ilə görüşdü. Xamenei onu qarşısında oturdub az qala barmağını silkələyərək, Zəngəzur dəhlizinin açılmasının Ermənistanın maraqlarına zidd olduğunu söylədi. Rüsvayçı bir mənzərə idi. Yəni, Vaşinqton Paşinyana deyir dəhliz layihələrinə qoşul, Tehran isə deyir ki, qoşulma. Eyni vaxtda iki-üç stulda oturmağa çalışan Paşinyan bu səbəbdən son qərarını verə bilmir. Ona görə Ağ ev Bakıya heç bir irad bildirə bilməz. Getsinlər Paşinyanla münasibətlərini aydınlaşdırsınlar. O, kimin tərəfində duracaq: ABŞ-nin, yoxsa İranın?".

***Çapa hazırladı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Paşinyanın "sərhəd dirəyi" maketi

(əvvəli 1-ci səhifədə)

Beləliklə, psixoloji anlamda ermənilərdə də türklərdən üstün mövqeyə sahiblənmək niyyəti baş qaldırıb. Kortəbii formada özünü göstərən bu niyyəti reallaşdırmaq naminə pozitiv heç nə düşünməyiblər, daha doğrusu, düşünməyi bacarmayıblar. Yəni ki, hansısa əməlləri ilə üstünlük qazanmaq ağıllarından keçməyib. Türkləri fiziki baxımdan sıradan çıxarmaq yolunu



seçiblər. Necə deyərlər, başqasının bədbəxtliyi üzərində xoşbəxtlik tapmağa girişib, eyni zamanda, bədbəxtlik yaradıblar. Əlbəttə, özlərini də bədbəxt etdiklərinin fərqinə varmayıblar.

Bəli, erməni qövmünün təmsilçiləri türk varlığının acınacaqlı duruma düşməsinə çalışıblar. Müxtəlif fitnə-fəsadlar törədiblər. İlk vaxtlar mərdimazarlıqları lokal xarakter daşıyıb. Ancaq bölgədə maraqlı olan xarici qüvvələr onların dağıdıcı potensiallarının olduğunu görüblər. Həmin qüvvələr erməniləri gücləndirməyə, təchiz etməyə başlayıblar. Bunun üçün isə əvvəlcə saylarını artırıblar. 1830-cu il köçürmələri məhz buna görə reallaşıb.

Nəzərə alaq ki, Cənubi Qafqazın ayrı-ayrı yerlərinə, xüsusən də Vətənimizin ərazisinə ermənilərin kütləvi köçürülmələri çar Rusiyası tərəfindən həyata keçirilsə də, bu, eyni zamanda, Qərbin imperialist dairələrinin də mənafeyinə uyğun olub. İkincilər regiona ayaq basmış erməniləri özləri üçün alət qismində görüblər. Bu alətin digər hissəsi Anadolu ərazisində Osmanlıya qarşı təxribatda istifadə olunub.

Əlqərəz, böyük güclər tarixin bütün dövrlərində Cənubi Qafqazla bağlı planlarının gerçəkləşməsində erməni qövmünə siyasi sərmayə yatırıblar. Onlar çox yaxşı biliblər ki, ermənilərdəki psixoloji durum anti-türk, anti-müsəlman yönümlüdür. Onu da gözəl biliblər ki, erməni anaları qundaqdakı körpələrinin qulağına türklərin düşmən olduqlarını pıçıldayırlar. İmperialist dairələr bu pıçıltıdan böyük ideoloji dava düzəltməyi bacarıblar. Nəticədə erməni millətçilərinin "Daşnaksütyun", "Hnçaq", daha sonralar "Asala" və sair bu sayaq terror təşkilatları formalaşıb. Nəticədə türklərə qarşı qanlı qətliamlar, sui-qəsdlər və nəhayət, işğallar gerçəkləşib. Beləliklə, həm Qərb, həm də Rusiya müştərək şəkildə Türk dünyasını parçalamaq niyyətlərini gerçəkləşdirib.

Yuxarıda kiçik epizodlarını qısaca diqqətə çatdırdığımız mürəkkəb siyasi labirintdə ermənilər üçün sərhəd anlayışı heç vaxt olmayıb. Çünki onlar dövlətə çevrilməyi düşünməyiblər, yalnız qövm kimi yaşayıblar. Bu mənada baş nazir Paşinyanın şagirdlərə sərhəd dirəyinin maketini göstərməsi, erməni analarının körpələrinə türklərin düşmən olduqlarını aşılamasından daha mütərəqqi mənzərədir. Nəzərə alsaq ki, Vətən sərhəddən başlayır, Paşinyanın son dövrlərdəki çıxışlarında erməni dövlətçiliyinin qorunub-saxlanılmasından söz açması adi məsələ sayıla bilməz.

Yeri gəlmişkən, N.Paşinyan çox tez-tez "real Ermənistan" ifadəsini işlədir. O, əslində, indiki dövlətin real olmadığının fərqindədir. Bilir ki, hazırkı Ermənistan qlobal güclərin yaratdıqları qurama strukturdur. Onu da anlayır ki, həmin güclərin mənafeyinə uyğun yaranmış dövlətə ehtiyac duyulmadıqda məhv pesrpektivi qaçılmazdır. Buna görə vəlvələdən, ya zəlzələdən yaranmış dövlətin qorunmasından danışır, əldə olunmuşlarla kifayətlənilməsinin vacibliyini vurğulayır.

Əlbəttə, indi Paşinyanın dediklərini həyata keçirməsi onun şagirdlərə maket göstərməsi qədər asan iş deyil. Çünki erməni qövmünün psixologiyası pozulub. Baxın, Paşinyan şagirdlərə sərhəd dirəyinin maketini nümayiş etdirir, ona əks qüvvələr mənzərəni rəzillik kimi qiymətləndirirlər. Əslində, onlar da fikirlərində haqlıdırlar və yazımızda bu barədə söz açacağıq. Hələlik isə anons etdiyimiz kimi, Nikolun erməni şagirdlərə başqa nələri dediyini diqqətə çatdıraq. Diqqətə çatdıraq və deyək ki, əslində, Paşinyan elə bir müstəsna fikir bildirməyib, sadəcə sərhədin dövlətin başlıca simvolu olduğunu anladıb. Məlumat verib ki, 2024-cü ildə Ermənistanla Azərbaycan arasında delimitasiya və demarkasiya prosesi Tavuşda həyata keçirilib. Amma başlıca məqam bu deyil.

Heç şübhəsiz, Nikolun moizəsini dinləyən şagirdlərin içərisində doğması, əzizi, qohumu 44 günlük müharibədə həyatını itirmişlər də var. Görəsən, onlar baş nazirə nə deyiblər? Hər halda, soruşa bilərlər ki, sərhəd Tavuşda olacaqdısa, nəyə görə bizim əzizlərimiz, doğmalarımız, qohumlarımız Zəngilanda, Füzulidə, Qubadlıda, Ağdamda, Şuşada, Ağdərədə, Xocalıda qanlarına qəltan oldular? Yəni, həmin şagirdlərin Paşinyanın hazırda rəzil və miskin kimi qarşılanmasına səbəb olan motivləri qabartmaları mümkündür. Görəsən, baş nazir ondan hesab soran şagirdə "erməni şəhəri Şuşini" qurtarmaq sözünü verməyib? Axı həmin Paşinyan idi ki, 2021-ci ilin parlament seçkilərində Şuşanı azad etmək kimi sərsəmliyi özünün platformasına daxil etmişdi. O zaman sərhəd dirəyi filan da yox idi...

Bəli, Ermənistanın indiki, belə demək mümkünsə, sərhədsizliyinə görə günahkar həm də N.Paşinyanın özüdür. Onun şansı var idi ki, erməni qövmünün psixologiyasına hakim kəsilmiş türklərə nifrət ritorikasını dəyişdirsin. O, erməni millətçiliyinin qonşulara qarşı ərazi iddiası xəstəliyini aradan qaldırmaq imkanına sahiblənmişdi. Hakimiyyətə gəlməzdən əvvəl verdiyi bəyanatlar bunun üçün zəmin yaratmışdı. Məsələn, Nikol baş nazir olmayanda bildirmişdi ki, Qarabağ Ermənistanın üzərindəki ağır yükdür və ondan qurtulmaq lazımdır. Amma həmin yükdən qurtulmağın son dərəcə yanlış metodunu seçdi. O dedi ki, "Qarabağ Ermənistandır və nöqtə". Üstəlik, baş nazirin komandasının üzvləri "yeni ərazilər uğrunda yeni müharibə" şüarını irəli sürdülər. Onun özü isə Şuşada – Cıdır düzünüdə şərab içib yerə sərilərək, Azərbaycan xalqının heysiyyatı ilə oynadı. Nəticədə 44 günlük müharibə baş verdi ki, onun Ermənistan üçün acı nəticələrini yenidən sadalamağa ehtiyac yoxdur.

Ancaq məsələ burasındadır ki, müharibə də Paşinyana dərs olmadı. O, yenə özünü erməni qövmnünün təmsilçisi kimi apardı. Azərbaycana qarşı məkrli siyasətə baş vurdu. Sonra yaşananlar da hər kəsə yaxşı məlumdur, indi olanlar da. Bu gün Paşinyanın rəhbərlik etdiyi Ermənistan Azərbaycanla sülhə gəlmir, müxtəlif xarici qüvvələrin, tarixdə olduğu kimi, erməni məsələsini ön plana çəkəcəyinə ümid bəsləyir. Buna görə də baş nazirin şagirdlərə ilk sərhəd dirəyinin maketini göstərməsində heç bir səmimiyyət yoxdur. Çünki Nikol başda olmaqla, rəsmi İrəvanın təmsilçilərinin davranışları və oyunbazlıqları dövlətin vacib simvolu olan sərhəd anlayışını şübhə altına alır. Deməli, şübhə altına alınan həm də Ermənistanın gələcək varlığıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Haylar odla oynayırlar

(əvvəli 1-ci səhifədə)

Əslində, həm Prezident İlham Əliyev, həm də ölkəmizin digər təmsilçiləri ATƏT-in Minsk qrupunun rəsmən ləğvini, bunun üçün Azərbaycanla Ermənistanın müştərək müraciəti məsələsini heç də elə-belədən irəli sürmürlər. Belə bir təsisatın kağız üzərində olsa da qalması, istər-istəməz keçmişə köklənmək üçün əsas yaradır. O keçmişə ki, onun ayrı-ayrı elementlərini dövlətimizin başçısının fikirlərində gördük. O keçmişdə Qarabağın hansısa şəkildə mübahisələndirilməsi istəkləri var idi. Məlum olduğu kimi, Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistanla aparılan danışıqlar prosesində bölgə ilə bağlı, onun ölkəmizin tərkibində qalması



şərtilə, müəyyən kompromislərə hazır olduğunu açıqlamışdı.

Ancaq rəsmi İrəvan bununla razılaşmamış, nəinki Qarabağı, eləcə də digər işğal edilmiş torpaqlarımızı əsarətdə saxlamışdı. Ən əsası isə Minsk qrupu özünün fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi ilə əsarətin leqallaşmasına çalışmışdı. Qurum, faktiki olaraq, erməni planlarının icraçısı rolunu oynamışdı. Erməni başbilənlərin strategiyasına görə, münaqişənin həlli uzandıqca, Qarabağ və işğal olunmuş digər ərazilər məsələsi gündəmdən çıxmalı idi. Yəni, onlar nəsillərin dəyişməsinə siyasi və mənəvi sərmayə yatırmışdılar. ATƏT-in Minsk qrupu da məhz belə bir mənfur niyyətli sərmayə kimi ortada olmuşdu.

Bəli, ATƏT-in Minsk qrupu formatının mövcudluğu psixoloji anlamda Qarabağ münaqişəsinin, o cümlədən, Azərbaycanla Ermənistan arasında konfliktin hələ də həllini tapmadığı deməkdir. Halbuki, belə bir durum yoxdur. Çünki Prezident İlham Əliyevin də ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edərkən vurğuladığı kimi, Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək, işğala son qoyub.

Onu da ayrıca vurğulayaq ki, 44 günlük müharibədən sonra da ölkəmiz nəyə nail olubsa, bunu sırf öz iradəsinə, qətiyyətinə və prinsipiallığına söykənərək edib. Dünyanın heç bir sözdə aparıcı olan, özünün mütərəqqi qələmə verən beynəlxalq təsisatı haqq işimizə əməli dəstək verməyib. Nəinki dəstək verməyib, hətta ermənipərəstlik göstərərək, maneçilik törətməyə çalışıb.

Nəhayət, Azərbaycanın qətiyyəti və prinsipiallığının nəticəsidir ki, bu gün Ermənistan məcburiyyət qarşısında qalsa da, səmimiyyətdən uzaq olsa da, sülh yoluna çıxıb. Ancaq göründüyü kimi, yenə siyasi manipulyasiyalarından əl çəkmir. Ermənistan XİN-in Bakı–İrəvan barış sazişinin imzalanması xüsusundakı danışıqların davamının ATƏT-in Minsk qrupu çərçivəsində aparılmasına dair mövqeyi də siyasi manipulyasiya cəhdindən başqa bir şey deyil. Sən demə, bu təsisata təmasların hərtərəfliliyi baxımından müraciət edilə bilərmiş. Bu, tam absurd yanaşmadır.

Qeyd edək ki, Azərbaycanın Minsk qrupu formatına etirazı bir yana, Ermənistanın baş naziri Nikol Paşinyan bu ilin iyununda ölkə parlamentinin iclasındakı çıxışında bildirmişdi ki, sözügedən təsisat fəaliyyətini de-fakto dayandırıb. 2022-ci ilin fevralında Rusiya–Ukrayna müharibəsinin başlanmasından sonra ATƏT-in Minsk qrupunun həmsədrləri arasında ünsiyyət yoxdur. İndi görəsən nə dəyişib? Heç nə!

Əslində, Ermənistanın manipulyativ davranışlarında da dəyişən heç bir element yoxdur. Bu, şübhəsiz ki, sülh prosesinə zərərdir. Çünki prosesin elan edilmiş bəlli sistematikası mövcuddur. Ölkəmizin iradəsinə qarşı çıxmaq hər zaman olduğu kimi, yenə də Ermənistana hansısa dividend gətirməyəcək. Ölmüş ATƏT-in Minsk qrupunu diriltmək istəkləri isə tam mənasızdır. Bu, İrəvanın odla oynaması deməkdir.

***Ə.RÜSTƏMOV***
***XQ***



# Milli Məclisə seçkilərə 15 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# “Otuz ildir ki, bu günü gözləyirdik”

*Müsahibimiz 125 saylı Zəngilan–Qubadlı dairə seçki komissiyasının sədri Əli Mönsümovdur*

**Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərə sayılı günlər qalıb. Hazırda prosesin namizədlər üçün gərgin mərhələsi – təbliğat-təşviqat dövrüdür. Eyni zamanda, bu seçkilər torpaqlarımızın işğaldan azad olunmasından və suverenliyimizin bərpasından sonra keçirilən ilk parlament seçkiləri olması baxımından da mühüm əhəmiyyətə malikdir. Dairə seçki komissiyalarının sədrləri ilə silsilə müsahibələrimiz çərçivəsində bu dəfə 125 saylı Zəngilan–Qubadlı dairə seçki komissiyasının sədri Əli Mönsümovla həmsöhbət olduq.**

***– Əli müəllim, 125 saylı Zəngilan–Qubadlı seçki dairəsində parlament seçkilərinə hazırlıq prosesi necə gedir?***

– Dairə seçki komissiyasında seçkilərə hazırlıq prosesi öz qaydasındadır. Biz 125 saylı DSK olaraq seçkilərə hazır vəziyyətdəyik. Məlumat üçün bildirim ki, 125 saylı DSK-nın 64 daimi seçki məntəqəsi var. Üç məntəqə isə qapalı məntəqələrdir. Yəni, onlar hərbi hissələrdə yaradılıb. Məntəqələrdən beşi işğaldan azad olunmuş ərazilərdə yerləşir. Onlardan dördü Zəngilan, biri isə Qubadlı rayonunun ərazisindədir. Həmin məntəqələrdən birini biz fevralın 7-də keçirilən prezident seçkilərindən sonra təşkil etmişik. Söhbət Zəngilan şəhərinin mərkəzindəki Zəngilan Konqres Mərkəzi Kompleksində yerləşən 64 saylı məntəqədən gedir. Bu, bizim təşkil etdiyimiz sonuncu seçki məntəqəsi olub. Qalan məntəqələrin əksəriyyəti Bakı və Sumqayıt şəhərlərində, o cümlədən Abşeron rayonunun ərazisində yerləşir. Həmçinin, Hacıqabul, Sabirabad, Şirvan və Gəncə şəhərlərinin hərəsində bir məntəqəmiz var.

Məntəqələrdə seçkiyə hazırlıq prosesi, demək olar ki, başa çatıb. Seçici siyahıları çapdan çıxıb paylanılıb. Onlar lazım olan avadanlıqla təmin olunublar. Məntəqələri səsvermə kabinələri, parçalar, təşviqat və tanınma lövhələri, daşınan və daşınmaz seçki qutuları, bir sözlə seçkiyə aid hansı inventar varsa, onlarla təmin etmişik. Artıq bildirişlər yazılır, paylanılır. Yəni, səsvermənin gedişatı üçün nə lazımdırsa, hamısı olunub.

***– Dairə üzrə seçki məntəqələrinin respublikanın müxtəlif rayon və şəhərlərində yerləşməsi hansı çətinlikləri yaradır?***

– Çətinlik var. Ancaq çalışırıq ki, çətinliyin öhdəsindən gələk. Çətinliklərə misal olaraq müxtəlif rayon və şəhərlərdə yerləşən məntəqələrə avadanlıqların, seçki materiallarının çatdırılmasının göstərmək olar. Çatdırılma işini ya DSK olaraq özümüz, qüvvəmiz hesabına, ya da digər strukturların köməyi və onların nəqliyyat vasitələri ilə həyata keçiririk. Buna baxmayaraq, seçkinin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün nə lazımdırsa, edirik.

***– Seçicilərin sayı nə qədərdir?***

– Daimi seçicilərin sayı 56 min 391 nəfərdir. Eyni zamanda, hərbi hissələrdəki məntəqələrdə də səs verəcək seçicilər var.

***– Deputat mandatı yarışına neçə nəfər qatılmışdı və neçəsi hazırda prosesi davam etdirir?***

– Seçkidə iştirak üçün, ümumilikdə, 17 nəfər müraciət etmişdi. Onlardan 6 nəfəri öz təşəbbüsü ilə namizədliyini geri götürdü. İki nəfər isə imza vərəqələrini və namizədin qeydə alınması üçün zəruri olan digər seçki sənədlərini dairə seçki komissiyasına təyin olunmuş vaxtda, yəni 2024-cü il avqustun 2-si saat 18:00-dək təhvil vermədikləri üçün onların namizədliyinin qeydə alınmasında imtina edildi. Beləliklə, 9 nəfərin namizədliyi qeydə alınmışdı. Üç gün bundan öncə bir nəfər də namizədliyini geri götürdü. Hazırda dairə üzrə 8 nəfər qeydə alınmış namizəd var. Yeri gəlmişkən, qeyd edim ki, Seçki Məcəlləsinə görə, namizəd səsvermə gününə 10 gün qalanadək namizədliyini geri götürə bilər.



Qeydə alınmış namizədlərdən ikisi Yeni Azərbaycan Partiyası və Müsavat Partiyası olmaqla siyasi partiyaları təmsil edirlər. Altı namizəd isə bitərəfdir və öz təşəbbüsləri ilə namizədliklərini irəli sürüblər.

***– Hazırda seçkiqabağı təbliğat-təşviqat dövrüdür. Dairə ərazisində bu iş necə aparılır?***

– Namizədlərin təbliğat-təşviqatını aparmaq üçün dairə üzrə 18 açıq və 16 qapalı olmaqla 34 məkan ayrılıb. Siyahı Mərkəzi Seçki Komissiyasının saytında da yerləşdirilib. Eyni zamanda, biz həmin siyahını məlumat lövhəmizdə yerləşdirmişik. İstənilən namizəd onunla tanış ola bilir. Bu məsələdə heç bir problem yoxdur.

***– Bütövlükdə, seçki yarışına maraq necədir?***

– Maraq böyükdür. Seçkiyə qatılan namizədlərin sayının çoxluğu da bunun göstəricisidir. Eyni zamanda, namizədlər sərbəst şəkildə öz görüşlərini keçirirlər. Heç bir məhdudiyyət yoxdur. Hansısa namizədə üstünlük vermək, yaxud digər namizədə mane olmaq cəhdləri olmayb və ola da bilməz. Bu, yolverilməzdir. Seçkiqabağı təşviqat aparmaq üçün bütün namizədlərə bərabər şərait yaradılıb. Namizədlər tam sərbəst şəkildə, qanunvericiliyin tələblərinə uyğun şəkildə öz təbliğatlarını aparırlar.

***– Dairə üzrə ən yaşlı və ən cavan seçicilərin sayı nə qədərdir?***

– Yaşı yüzdən yuxarı olan iki seçicimiz var. Onlardan İsmayılova Telli Mehdi qızının 111 yaşı var – 1913-cü ildə dünyaya gəlib. Əgər yaşı yüzdən yuxarı olan seçicilərin sağlamlıq durumu yaxşı olarsa, onlar özləri gəlib səs verəcəklər. Sağlamlıq durumu imkan verməyəcəyi təqdirdə o zaman onların evlərinə daşınan seçki qutusu aparılacaq.

Dairə üzrə ilk dəfə səs verəcək seçicilərin sayı 783 nəfərdir.

***– Müşahidəçilərin də sayını bilmək istərdik...***

– İndiyədək qeydiyyatdan keçən müşahidəçilərin sayı 773 nəfərdir. Onlardan 325 nəfəri öz təşəbbüsü ilə, 448 nəfəri isə siyasi partiyaları təmsil edir. Məşvərətçi səs hüquqlu komissiya üzvlərinin sayı isə 65 nəfərdir.

***– 125 saylı DSK-nın işğaldan azad edildikdən sonra Zəngilan və Qubadlı rayonlarında yaratdığı seçki məntəqələri, orada seçki prosesinin təşkili ilə bağlı ətraflı məlumat verməyinizi istərdik...***

– 2020-ci ildə Vətən müharibəsindəki tarixi Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə qeyd etdiyim kimi, 125 saylı dairə üzrə 5 seçki məntəqəsi yaratmışıq. Bunlar Zəngilan rayonunun Ağalı kəndindəki orta məktəb binasında yaradılan 33, Birinci Alıbəyli kəndindəki “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin ərazisində yaradılan 61, İranla həmsərhəd ərazidə, Zəngəzur dəhlizinin üzərində yerləşən Ağbənd qəsəbəsində təşkil olunan “Kalyon” yol tikintisi şirkətinin inzibati binasında təşkil olunan 62, Qubadlı rayonunun Xanlıq kəndində “Polat Yol Yapı” şirkətinin inzibati binasında təşkil olunan 63 və yenə Zəngilan rayonunun mərkəzində yaratdığımız 64 saylı seçki məntəqələridir. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində bu məntəqələrdə seçici fəallığı çox yüksək olub. Orada həm işləyən vətəndaşlar, eyni zamanda Ağalı kimi məskunlaşdırılmış, daimi seçicilərin olduğu kəndlər var. Mən əminəm ki, bu seçkidə də orada yüksək fəallıq olacaq. Hamı sərbəst şəkildə gəlib istədiyi namizədə səs verəcək.

***– Parlament seçkilərinin Azərbaycan ərazilərinin işğaldan azad olunmasından və ötən il suverenliyin tam bərpa edilməsindən sonra qanunverici orqana ilk dəfə keçirilən seçkilər olması barədə də fikirlərinizi eşitmək maraqlı olardı...***

– Vətən müharibəsindən sonra bütün Azərbaycan xalqında, o cümlədən işğaldan azad olunmuş rayonların əhalisi arasında böyük ruh yüksəkliyi yaranıb. Seçici fəallığı isə bizdə hər zaman yüksək olub. Yəqin ki, bu seçkidə də yüksək olacaq və hər kəs gəlib istədiyi namizədə sərbəst şəkildə öz səsini verəcək. Artıq qeyd etdiyim kimi, prezident seçkilərində çox böyük fəallıq qeydə alınmışdı. Əminəm ki, seçkilər tam şəffaf, azad və ədalətli şəkildə keçiriləcək. Seçicilərə istədiyi namizədə səs verməsi üçün şərait yaradılacaq.

Mən bir vətəndaş və Zəngilan rayonunun sakini kimi də işğaldan azad edilmiş ərazilərdə ilk dəfə parlament seçkilərinin keçirilməsini, əlbəttə, çox yüksək qiymətləndirirəm. Hamımızın ürəyincədir ki, bu seçkilər Azərbaycanın bütün ərazisində, işğal faktının aradan qaldırılması və suverenliyimizin tam bərpa olunması şəraitində keçirilir. Hamı bilir ki, biz az qala 30 ildir ki, bu günü gözləyirdik. Arzumuz torpaqlarımızın işğaldan azad olunması, gedib öz rayonumuzda məskunlaşmaq və istər prezident, istərsə, parlament, istərsə də bələdiyyə seçkilərində və referendumda səs vermək idi. Bu gün həmin arzumuz həyata keçir. Bu, ağla sığmayan dərəcədə fəxarətdir. Cənab Prezident, Ali Baş Komnandanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olundu. Hamı çox böyük həvəslə seçkilərə gedir. Bu, bizim 30 illik arzumuz idi.

Onu da deyim ki, 125 saylı DSK-nın binası hələlik Bakıda, Nərimanov rayonunda yerləşir. Arzu edirik ki, dairə seçki komissiyası da tezliklə Zəngilan və ya Qubadlı rayonuna köçürülsün. Biz bununla bağlı təşəbbüs qaldırmışq. İnşallah, növbəti seçkiləri dairə seçki komissiyasının inzibati binasının Zəngilanda və ya Qubadlıda yerləşməsi şəraitində təşkil edəcəyik.

***Səxavət HƏMİD***
***XQ***

# Rəşad Məcid: Media “qara piar” alətinə çevrilməməlidir

**Mətbuat Şurasının sədri Rəşad Məcid “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında deyib ki, suverenliyimizin tam bərpasından sonra ilk dəfə reallaşacaq Milli Məclisə seçkilərin media tərəfindən obyektiv işıqlandırılması zəruridir: “Jurnalistlərimizin qanunvericiliyin tələblərinə uyğun davranması demokratik dövlət, hüquqi cəmiyyət quruculuğunun dərinləşməsinə töhfə vermək baxımından son dərəcə vacibdir. Seçki prosesinin taleyüklülüyü və ciddiliyi nəzərə alınmalı, məsələlərə peşəkar yanaşma sərgilənməlidir”.**

Mətbuat Şurasının seçki prosesindəki rolu barədə fikirlərini bölüşən R.Məcid bu zaman iki ənənəvi xətti əsas götürdüklərini vurğuladı: “Birincisi, seçki kampaniyası dövrünün diqqətdə saxlanılması, ikincisi isə seçki gününə hesablanmış fəaliyyətdir. Şura birinci istiqamət üzrə ölkənin müntəzəm yayımlanan media subyektlərinin materiallarına diqqət yetirməkdədir, mütəmadi monitorinqlər həyata keçirilir. Bu mənada sosial şəbəkələrə də nəzər salmaq şərtdir. Bəzən görürük ki, ayrı-ayrı sosial şəbəkə profillərində yayımlanmış fikirlər və ya məlumatlar media və jurnalistlər üçün xəbərə çevrilir. Media bu bilgiləri nə dərəcədə dəqiqləşdirir – bu olduqca vacib bir məsələdir. Media “qara piar” alətinə çevrilməməlidir”.



Seçki günü MŞ-da “Qaynar xətt”in fəaliyyət göstərəcəyini bildirən sədr bu ənənənin 2005-ci ildən başladığını və davam etdirildiyini, prosesi işıqlandıracaq jurnalistlərə ortaya çıxa biləcək hər hansı bir məsələ ilə bağlı həmin nömrələrlə əlaqə saxlamalarını məsləhət bildi.

**“Milli Məclisə budəfəki seçkilər bir çox əlamətlərinə görə diqqət çəkir. Bu seçkilər müstəqil Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə yadda qalacaq. Ölkədəki 26 fəal siyasi partiyadan 25-nin iştirak etməsi seçkiləri demokratik göstəricilər baxımdan da diqqət mərkəzinə gətirir. Parlament daxilində onların hər birinin potensialı üzə çıxacaq və Milli Məclisə hansı ideyalarla getdikləri bəlli olacaq”.**

# Moisey Bekker: Bu seçkilər bir çox əlamətlərinə görə diqqət çəkir



Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında siyasi elmlər üzrə fəlsəfə doktoru Moisey Bekker deyib. O qeyd edib ki, Milli Məclisin yeni tərkibi işğaldan azad edilmiş ərazilərin sürətləndirilmiş reintegrasiyası, iqtisadi inkişafı üçün əlverişli ab-havanın yaradılması, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtması, texnoparkların və müasir istehsal müəssisələrinin, səhiyyə ocaqlarının, təhsilin inkişafını nəzərdə tutan qanunların hazırlanmasına maksimum səy göstərməli olacaqdır.

“Mövcud geosiyasi durumda Azərbaycan regional siyasətdə aparıcı oyunçulardan birinə çevrilib. Dünyəvi, multikultural və sürətlə inkişaf edən dövlət digər ölkələr arasında heyranlıqla bərabər əməkdaşlıq da arzusu doğurur”, – deyə M.Bekker fikrini yekunlaşdırıb.

# Təlimlərə 1248 nəfər qatılıb

**Sumqayıtda fəaliyyət göstərən altı seçki dairə komissiyasının aşağı seçki komissiya üzvləri üçün təşkil olunan maarifləndirici təlimlər başa çatıb. Milli Məclisə növbədənkənar seçkilərə hazırlıq məqsədilə təşkil olunan treninqlərə məntəqə seçki komissiyalarının sədr, katib və bütün üzvləri cəlb olunub. Avqustun 12-dən başlayan təlimlərdə şəhər üzrə ümumilikdə 1248 nəfər iştirak edib.**



“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, 45 saylı Sumqayıt dördüncü və 43 saylı Sumqayıt ikinci seçki dairələri seçki komissiyalarının yekun iclasında təlimlərdə seçki günü yarana biləcək bir çox suallara aydınlıq gətirilib. Səsvermə günü məntəqə seçki komissiyalarının hər bir üzvünün işinin çərçivəsi müəyyənləşdirilib, səsvermə prosesinə aid bütün protokol məsələlər haqqında ətraflı məlumat verilib. Eyni zamanda, iştirakçıların sualları cavablandırılıb, onlara MSK-nın hazırladığı “Yaddaş kitabçası” təqdim edilib. Açıq dialoq formatında keçən sessiyaları MSK-nın kurslarında iştirak etmiş təlimçilər aparıblar.

# Seçki xəbərləri

## Müşahidəçilərin sayı açıqlanıb



Milli Məclisə seçkilərlə əlaqədar 43 ölkə və 24 qurumdan ümumilikdə 228 beynəlxalq müşahidəçi qeydə alınıb. Secki-2024.az saytı xəbər verir ki, bunu nəzərə çatdıran MSK-nın Məzahir Pənahov bildirib ki, seçkilərlə əlaqədar 38 min 744 yerli müşahidəçi qeydə alınıb: “Bu müşahidəçilərdən 5 min 621 nəfəri MSK-da, 33 min 123 nəfəri isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib”.

## Ağsuda 280 nəfər ilk dəfə səs verəcək



“90 saylı Ağsu seçki dairəsi 62 seçki məntəqəsini özündə birləşdirir. Seçki məntəqələrinin hər biri lazımi avadanlıqlarla və maarifləndirici materiallarla təchiz olunub. Səsvermə gününə hazırıq”. Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 90 saylı Ağsu DSK-nın sədri Azad Dursunəliyev deyib. O bildirib ki, seçki dairəsi üzrə seçicilərin sayı 51 min 967 nəfər təşkil edir: “Bu seçicilərin 280 nəfəri ilk dəfə səs verəcək”.

## Məntəqə seçkiyə tam hazırdır

“120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin 80 saylı seçki məntəqəsi Cəbrayıl şəhərindəki “Azərişıq” ASC-nin inzibati binasında yerləşir. Məntəqə seçkiyə tam hazırdır”. Bu barədə “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 120 Cəbrayıl-Qubadlı DSK 80 saylı seçki məntəqəsinin sədri Zaur Quliyev deyib.



## Yaşı əsri adlamış 5 seçici var



88 saylı Şamaxı seçki dairəsi üzrə 51 min 114 seçici 60 seçki məntəqəsində səs verəcək. Bu seçicilərin 608 nəfəri ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Seçki dairəsi üzrə 100 yaşdan yuxarı seçicilərin sayı 5 nəfərdir. Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 88 saylı Şamaxı DSK-nın sədri Hüseyin Rəcəbov deyib.

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Beynəlxalq elmi əməkdaşlıq

## Türk Dövlətləri Təşkilatı konteksti



**III məqalə**

### Türk dünyası elmi məkanına doğru

Bu mövzuda II məqalənin son tezisini bir daha xatırlatmaq istərdim: "...Avropa faktiki olaraq özünün tarixi, elmi, sosial, iqtisadi, mədəni, mənəvi və başqa istiqamətlərdə region kimi elmi tədqiqinə ciddi önəm verir. Eyni təcrübənin Türk Dövlətləri Təşkilatına da aid edilməsi tamamilə təbii və vacib görünür".

Etiraf edək ki, "eyni təcrübənin türk dövlətləri və xalqlarına aid edilməsi" cümləsi bir sıra hallarda asan görünür, lakin təcrübədə fərqli münasibətlə üzləşməli oluruq. Bunu "psixoloji darlıq" və ya məqsədli inkarçılıqla qəbul edənlərin səsləri gəlir. Başqa tərəfdən, bir cümlədə asan ifadə edilə bilən məqsədin reallaşması sadə deyildir. Lakin bu istiqamətdə artıq davamlı və sistemli çalışanlar meydandadırlar. Onların önündə AMEA-nın rəhbərliyi, yaradıcı insanları, alimləri gedirlər. Məqsədi və vəzifəni isə Azərbaycan Prezidenti müəyyən etmişdir! Bu prosesin əhəmiyyətini daha dərindən anlamaq üçün faktlara təhlili yanaşmaq olar.

Məsələ ondan ibarətdir ki, yalnız Avropada elmi nailiyyətlərdən regionun (Avropa İttifaqının) tərəqqisi üçün yararlanmaq məqsədini qarşıya qoymamışlar. 2012-ci ildən Asiyada Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyası (AASSA) fəaliyyət göstərir. AASSA-nın fəaliyyəti elm, innovasiyalar və texnologiyalar üzrə əməkdaşlığı əhatə edir. O, 2000-ci ildə yaradılmış Asiya Elmlər Akademiyası Asossiasiyası (AASSA) ilə 1984-cü ildə əsası qoyulmuş Asiya Elmi Cəmiyyətləri və Elmlər Akademiyaları Federasiyasının (FASAS) birləşməsindən yaranmışdır. AASSA bu keyfiyyətdə Asiya və Okeaniyanın (Avstraliya) elmi cəmiyyətləri və elmlər akademiyalarını birləşdirir.

AASSA-nın məqsədi üzv dövlətlərdə milli inkişafa dəstək verən elmi-texnoloji və innovativ layihələri həyata keçirməkdən ibarətdir. Bütün Türk dövlətləri bu elmi təşkilata üzvdürlər.

Belə çıxır ki, Türk dövlətləri Avropa, Avrasiya (Avrasiya Akademiyaları Birliyi də vardır) və Asiya üzrə yaradılmış elmi təşkilatlar çərçivəsində əməkdaşlıq təcrübəsinə (az və ya çox) malikdirlər. Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan müxtəlif regionlara aid elmi təşkilatlarda əməkdaşlıq edə bilərlər. Təbii bir sual meydana çıxır: Türk dövlətləri özlərinin yaratdıqları təşkilat çərçivəsində sistemli və planlı elmi əməkdaşlıq edə bilməzlər?

Cavab aydındır və məhz buna görədir ki, AMEA dövlət başçısının müəyyən etdiyi kurs üzrə TDT daxilində elmi əməkdaşlıq təcrübəsi yaratmaqdadır. Bu, öncə də vurğuladığımız kimi, bir yenilikdir və əhəmiyyətli gəlişmədir. Eyni zamanda, məsuliyyətdir, çünki qarşıya praktiki vəzifə çıxır – real olaraq TDT daxilində səmərəli elmi əməkdaşlığı necə təşkil etmək olar? Yəni Türk Dövlətləri Elmi Məkanını nəzəri obrazdan real feili təşkilatlanmaya transfer etmək necə mümkündür? AMEA-nın yeniləşməsinin türk dünyası miyqasında olduqca böyük əhəmiyyətlərindən biri bu suala cavab axtarışları ilə bağlıdır.

Bu istiqamətdə davamlı olaraq uğurlu olmaq üçün sözün həqiqi sivil mənasında savaşmaq, mübarizə aparmaq lazımdır. Çünki əsrlərdir ki, məhz bu istiqamətdə bir-birindən təcrid olunmuş və faktiki olaraq türk birliyi xaricində əməkdaşlıqlara cəlb edilmiş, hər hansı türk birliyi ideyasını "pantürkizm" kimi qələmə verib, ayrımçılıqla məşğul olan dairələr indi də sakit dayanmamışlar.

Bundan başqa, türk dövlətlərinin elmi qurumlarının əməkdaşlıq üçün stimullaşdırılması da ayrıca aktual məsələdir. Əlbəttə, aydındır ki, bu kimi məsələləri reallaşdırmaq üçün konkret nümunə və nümunəvi davranış lazımdır. Bunu AMEA rəhbərliyində görürük.

### Türk elmi məkanının təşkilati aspekti

Sözsüz ki, XXI əsrdə ciddi struktur-funksional keyfiyyətə malik təşkilat olmasa, beynəlxalq miqyasda elmi əməkdaşlıq səmərə verməz. Türk Dövlətləri Təşkilatı üzvlərinin də bu baxımdan üzərində işləmək üçün xeyli vəzifələri vardır. AMEA bunu nəzərə alaraq, aktiv şəkildə ilk olaraq TDT üzvləri ölkələrinin Elmlər akademiyaları və elmi təşkilatları ilə praktiki əlaqələr qurur. AMEA prezidentinin fəal şəkildə Türkiyə, Qazaxıstan, Özbəkistan və Türkmənistana səfərləri bunu təsdiq edir. Həmin səfərlər zamanı əldə edilən razılaşmalara vahid bucaq altında baxsaq, maraqlı mənzərə görərik. Çünki onların hər birində əməkdaşlığın üç aspekti mütləq özünü göstərir.

Birincisi, qarşılıqlı faydalı istiqamətlər üzrə müasir tələbləri nəzərə alaraq əməkdaşlıq sferaları müəyyənləşir. Nümunə kimi Qazaxıstan, Özbəkistan, Türkmənistan və Türkiyə ilə ən yeni elmi istiqamətlər (süni intellekt, yüksək kommunikasiya-informasiya texnologiyaları, cəmiyyətin müasir sosioloji texnologiya ilə tədqiqi, elektron kommunikasiya üsullarından geniş istifadə və s.) üzrə razılaşmaların əldə olunduğunu göstərə bilərik.

İkincisi, türk xalqlarının elmi-mədəni kimliyi ilə sıx bağlı olan mövzular üzrə əməkdaşlığa üstünlük verilir. Həmin kontekstdə Azərbaycanın görkəmli elm, mədəniyyət. incəsənət və s. görkəmli xadimlərinin türk dövlətlərinin elmi qurumlarında müzakirələrinin aparılması, həmin elmi təşkilatlarda müxtəlif guşələrin yaradılması (məsələn, Azərbaycan mədəniyyəti guşəsi və ya Heydər Əliyev guşəsi, Nizami guşəsi və s.) və eyni zamanda, AMEA-da digər türk dövlətlərinin görkəmli şəxsiyyətləri ilə bağlı müzakirələrin keçirilməsi və uyğun guşələrin yaradılması (məsələn, Məhtumqulu Fəraqi guşəsi, Türk dövlətlərinin mədəniyyət guşəsi, Əlişir Nəvai guşəsi və s.) artıq faktlardır.

Üçüncü aspekt də çox əhəmiyyəlidir. AMEA vurğulanan istiqamətlərdə konkret yaradıcılığın təşkil edilməsi və həyata keçməsi üçün yeni struktur vahidləri yaradır. Məsələn, bir neçə elmi tədqiqat institutlarında türkologiya şöbələri yaradılıb. Yarandığı tarixdən ilk dəfə olaraq, AMEA prezidentinin təşəbbüsü ilə Fəlsəfə və Sosiolgiya İnstitutunda türk xalqlarının fəlsəfəsini müasirlik kontekstində sistemli araşdıracaq şöbə təsis edilib. Təşkilati və kadr işlərindən sonra şöbə konkret fəaliyyətə başlayacaqdır.

AMEA-nın bu təşəbbüsləri digər türk dövlətlərinin analoji araşdırma strukturlarının yaradılmasını stimullaşdırır. Həmin prosesin sistemli və davamlı aparılması ilə tarixdə ilk dəfə olaraq müstəqil dövlətlər kimi türk ölkələri ortaq real mövcud olan elmi əməkdaşlıq məkanına sahib olurlar! Təbii ki, biz hər bir türk dövlətinin uğuruna sevinirik, lakin həmin tarixi hadisənin təşəbbüskarı və aparıcı gücü Azərbaycanın olması ayrıca qürur verir! AMEA bu sferada bütövlükdə türk dövlətçiliyinə və sosial-mədəni tərəqqisinə strateji əhəmiyyətli töhfə verməkdədir!

### Türk elmi məkanı yaradıcılıq sahəsi kimi

Yaradıcılıq olmadan elmdən danışmaq absurd məşğuliyyətdir. Türk dövlətlərinin elmi məkanı da öz yaradıcılıq potensialı ilə fərqlənməlidir. Kimlərdənsə üstün görünmək və ya başqalarına acıq vermək anlamında deyil, müasir dünyada türk sivilizasiyasının (bu ayrı mövzudur və onu fəlsəfi aspektdə tədqiq etmək lazımdır) əsl yeri və rolunu müəyyən etməklə bağlıdır. Bundan daha fundamental olan məqsəd isə türk dövlətlərinin elmi əsasda inkişafını ortaq relsə çıxarmaqdan ibarədir. Həmin dəyərin təməlində isə türk dövlətlərinin hər bir vətəndaşının rifahı, intellektual inkişafı və sağlam həyat sürməsi dayanır.

Deməli, bünövrəsi türk dövlətləri vətəndaşlarının ləyaqətli, sivil, intellektual dəyərlərə malik, yaradıcı şəxslər kimi formalaşması əsasında kreativ cəmiyyət (toplum və ya millət) formalaşdırmaq AMEA-nın türk elmi məkanı anlayışının mərkəzində dayanır. Bunun nəzəri elmi obraz və konseptual məqsəddən sosial-praktiki-tətbiqi gerçəkliyə çevrilməsi isə ancaq elmi yaradıcılıq vasitəsilə mümkündür.

Elmi yaradıcılığın vurğulanan məqsədə nail olmaq aspektində motivə edilməsi prosesi müxtəlif elmlər üzrə və fənlərarası tədqiqat sahələrində konkret elmi proqramların, layihələrin, simpoziumların, konfransların, seminarların, "dəyirmi masa"ların və yubileylərin keçirilməsi formatlarından aktiv istifadəsi ilə əlaqəli ola bilər.

Türk dövlətlərinin elmi qurumlarının həm ortaq kommunikasiya mühitindən yararlanmaları, həm dünya miqyasında elmi reytinqlərə çıxmaq üçün ortaq kommunikativ kanaldan istifadə etmələr, həm də çoxlu sayda birgə layihə-proqramlar reallaşdırmağa başlamaları bu səbəbdən çox vacibdir.

Yaradıcılığı kollektiv vahid komanda aspektinə transformasiya etməklə vurğulanan elmi məqsədlərlə yanaşı, alimlərin psixoloji, sosial, mənəvi-etik, kommunikativ ünsiyyətdə ortaq prinsiplərdən istifadə etmək kimi əhəmiyyətli keyfiyyətlərə sahiblənmələri vəzifəsi də yerinə yetirilmiş olur. Vahid yaradıcı komandada səmərəli yaradıcılıq fəaliyyətinə nail olmağın gözəl nümunəsini Avropadakı regional elmi təşkilatların qazandığı uğurlar aydın göstərir. Onlar müasir elmin ən yeni sahələri üzrə kəşfləri ilə yaxşı mənada təəccübləndirirlər. Bizcə, məhz bu kimi təcrübəni türk elmi təşkilatları və alimləri sürətlə əxz etməlidirlər. Eyni zamanda, hər bir türk dövləti elm və təhsilə Avropa qədər diqqət ayırmağı, maliyyə sərf etməyin təcrübəsini də götürməlidir. Çünki yerlərdə ciddi yaradıcılığa imkan verən yeni tipli fəaliyyət olmasa, davamlı və sistemli elmi inkişaf mümkün deyildir. Azərbaycanda çox düşündürücü bir atalar sözü vardır: "Quyunun dibinə su tökməklə dolmaz – su gərək özündə ola".

Türk dövlətlərinin ortaq elmi məkanının yaradıcılıq aspektində formalaşması ancaq türk coğrafiyası ilə məhdudlaşmayacaq təsir gücü yaradacaqdır. Çünki coğrafi olaraq türk məkanı çox sayda ölkələr və cəmiyyətlərlə həmsərhəddir və qarşılıqlı elmi-mədəni, informasiya mübadiləsi tarixən mövcud olmuşdur. İndiyə qədər hər hansı türk dövlətinin özünütəcrid siyasəti yeritdiyi nümunəsi yoxdur. Yəni təbiətən və mahiyyətcə yerli ilə beynəlmiləlin sintezini özündə ehtiva edən türk cəmiyyətləri mütləq digər xalqların, cəmiyyətlərin elmi məkanları üçün açıq olacaqdır.

O halda TDT davamlı inkişaf edən elmi məkan yaratdıqda, geniş geosiyasi və coğrafi məkanda elmin inkişafı üçün yeni stimul qaynağı əldə etmiş olacaqdır. Təşkilat bununla geosiyasi, iqtisadi, informasiya mərkəzi olmaqla yanaşı, elm və mədəniyyət mərkəzi kimi də özünü təsdiq edəcəkdir. Şübhə yoxdur ki, müasir sivilizasiya üçün bu, yeni sivil töhfədir. Dünyanın daha humanitar və elmi mənzərə alması yolunda atılmış mühüm addımdır. Bu mənada türk sivilizasiyasının öz ədaləti, elmi, mədəniyyəti, sülhü və barışçıllığı ilə dünya sivilizasiya arenasına yeni qayıdışıdır!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Erməni millətçiliyinin təməl prinsipləri

**Millətçilik şəxsiyyət azadlığının əldə edilməsinə və bunların davam etdirilməsinə istiqamətli bir anlayışdır. Əslində, buna hər bir millətin müstəqil olma mübarizəsi kimi baxılır, onun birlikdə yaşama və var olması üçün atdığı ideoloji bir hərəkətdir. Ümumən, hər bir millətə "modernist" bucaqdan baxılarsa, açıq görünər ki, milli şəxsiyyəti yaradan elə milliyyətçiliyin özüdür. Bir zamanlar Monqolustanda etnik baxımdan monqol olub-olmama əhəmiyyətli deyildi, vacib olan monqol qanununu qəbul etmək və monqollar kimi yaşamaq idi. Bu yanaşma bir çox ölkələr üçün uzun zaman yaşam və fəaliyyət göstərmə prinsipi olub.**



Amma erməni kimi tanıdığımız haylara bu prinsip aid oluna bilməz, çünki onların dövləti olmamış və içərilərində etnik baxımdan onlara yaxın millətlər də olmayıb. Bu mənada, erməni millətçiliyinin çatışmayan cəhətləri özünü qabarıq göstərir. Erməni milliyyətçiliyi, əvvəla, heç zaman modernist olmayıb, ikincisi isə özü bir şey ifadə etməsə də onun millətçiliyi başqa xalqlara "yuxarıdan aşağı" baxması kimi eqoist yönü ilə seçilməyib. Erməni millətçiliyi içi boşluq olan nəsnəni doldurmaq eqosu ilə ortaya çıxıb.

Hay millətçiliyinin antibəşəri xarakterini açmaq üçün biz öncə millətçilik anlayışının erməni toplumunda necə qavranıldığına diqqət etməliyik. Ermənicə millət –ազգ (azq) sanki yalnız onlara aid olan bir qavramdır, digər xalqlar ազգ (millət) ola bilməzlər. Ermənilərin bu anlayışa "fərqli yanaşmaları" onların millətçilik xəstəliyinə tutulmaları ilə bağlıdır. Millətçiliyə ideologiya kimi də, siyasi doktrina kimi də, yaşamaq, varolmaq üçün mübarizə üsulu kimi də baxmaq mümkündür. Qərbdə millətçilik öncə siyasi məqsədə çatmaq vasitəsi olub fərdi azadlıq əldə etmək düşüncəsi ilə sıx bağlı bir konsepsiya kimi götürülüb.

Müasir millətçiliyin Avropada əsasını fransızlar qoymuşlar. Bu, sadəcə olaraq, bir siyasi və ideoloji layihə kimi ortaya çıxıb. Millətçiliyin klassik növü İngiltərədə bərqərar olub. Buna siyasətdən və ideologiyadan kənarda baxılmayıb. Bu modellər, yəni "Qərb modeli" qorunub saxlanılıbmı? XVIII əsrdən üzü bu yana ona yön verən isə almanlar olub. Fransada yaranan millətçilik sosial və siyasi layihə idi, bu, digər ölkə və xalqlarda da özünü məhz həmin formada səciyyələndirirdi. Fransız milli ideologiyası alman mifləri ilə əvəzlənərkən özündə süni çalarları əks etdirməyə başladı.

Millətçiliyin "Şərq modeli" isə daha fərqli formada özünü göstərirdi. Biz bu mənada, "millətçilik layihələrinə" erməni millətçiliyi nümunələrində təhlil etməyə çalışsaq həmin fərqi aşkar görərik. Adam Smit tərəfindən əsaslandırılan modeli çox asanlıqla erməni millətçiliyinə aid etmək olar. Burada ümumi əcdad–Hayka bağlılıq var, burada erməni "qızıl əsrinə" həsrət özünü göstərir ( guya ki, 1,5 min illik enmədən sonra yüksəliş gələcək), "Vətənin itirilməsi"nə yanğı və acıma var. Bu "millətçi mif" XIX əsrin sonlarında, XX əsrin əvvəllərində bir qrup ziyalının ortaya çıxmasını şərtləndirmişdi. Onların arasında yazıçılar, publisistər, din adamları və s. vardı. Raffi, Leo, Artsruni, Mıkrtiç Xrimyan… Bu ideologiyanı yayanlar mətbuat orqanlarına da malik idilər. "Mşak" qəzeti, daha sonra "Hnçak", "Droşaq" və digər yayın orqanları bura aiddir. Onların içərisinə erməni əsilli Rusiya vətəndaşları daxil olmuş və rus xalqçıları kimi onlar da xalqın içərilərinə, kəndlərə üz tutmuşdular.

İlk erməni millətçiləri sayılan mxitaristlər erməni milli hissini oyatmaq məqsədilə Venetsiyada maarifçilər kimi yetişdirilib Şərqi Anadoluya göndərilirdilər. Buralarda erməni millətçiliyini yaymaq çətin deyildi, bunun üçün daha öncələrdə mxitaristlərin təsiri ilə silahlanmış qüvvələr ayaqda idilər. Bu işdə onlara tarixi "qəhrəmanlıq mifləri" də köməyə gəlirdi. Məsələn, Sasunlu David mifi…Erməni tarixini şişirdilmiş formada təqdim edən yazar Leo, daha sonra xalqın yadellilərə–xüsusən də müsəlmanlara (türklərə!) qarşı mübarizəsindən bəhs edən romanlar müəllifi Raffi… Türkləri öldürməyi səsləyən Artsruni…"Türk görüb öldürməmisənsə, sən erməni deyilsən" deyən Garegin Njde… Keçdiyi hər yerdə qan izi buraxmış Andranik, "Nemesis" terror təşkilatını qurmuş Şahan Natali və yüzlərlə başqaları... Hamısının içərisində mərkəzi rolda bir erməni separatizmi yatırdı. Başqalarının torpaqlarına iddialardan doğan erməni şovinizmi…

Tarixə nəzər salsaq yenə də görərik ki, erməni kilsəsinin, sonra isə erməni dövlətinin də istiqamətləndirdiyi hay ideologiyasının püxtələşməsinə millətçi cərəyanların hər biri təsir göstərib. Fərqli zamanlarda və fərqli şəraitdə ortaya çıxmalarından asılı olmayaraq, bu ideologiya bir mərkəzə tabe olub. Mərkəz rolunu isə din–erməni kilsəsi oynayıb. Erməni kilsəsi tarix boyunca heç vaxt malik olmadığı dövləti əvəz edib.

Ermənilər arasında qərbliləşmə və islahat hərəkatlarının başlanğıcı XVIII əsrin ilk illərinə söykənir. 1701-ci ildə Sivaslı Mxitar Vartabed liderliyində başlayan islahat hərəkatı da bu millətçiliyin irqçiliyə dönüşünün qarşısını ala bilməmişdir. Katolik ermənilərin İstanbul erməni patriarxı ilə bir sıra problemlərinin olmasına baxmayaraq, öz aralarında da tam bir birlik var idi. Bütün təzyiqlərə baxmayaraq, erməni patriarxı ilə əlaqələrin tamamilə kəsilməsini istəyənlər də vardı. Bunun tam əksini ifadə edən qruplar isə mxitaristlər, antonyan təriqəti mənsubları və İstanbuldakı keşiş sinfindən olan ermənilər idi. Buna görə yuxarıda bəhs etdiyimiz katolik erməni qrupları aralarındakı dini anlayış fərqliliklərinə baxmayaraq, təbliğatda ortaq hərəkət etdilər. Təbliğat isə Osmanlı dövlətinə qarşı üsyanlar təşkil etməkdən ibarət idi.

Vaxtaşırı sərt mübarizələrə səhnə olan mxitaristlərin islahat hərəkatı 1860-dan Sultan Abdülməcid tərəfindən erməni milləti nizamnaməsi ilə yeni şəkil aldı. Bu nizamnamə ilə qurulan erməni millət məclisi Osmanlı dövlətindəki ilk təmsili parlament orqanı səlahiyyətində olub, 1876 Qanun-u Esasisi ilə qurulan Osmanlı Mebusan Məclisinə də nümunə təşkil edib. Beləcə, erməni millətçiliyinin əsası qoyulub. Daha sonralar bu millətçilik ayrı-ayrı erməni cərəyanları tərəfindən inkişaf etdirilib. Bir nəzəriyyə olaraq bu millətçilik erməni xalqının "mübarizələrində" ana xətt olaraq götürülüb. Osmanlıda və onun xaricində nəşr olunan qəzetlərində fərqli cərəyanlar və onların fərqli baxışları görülsə də, burada da kilsənin mərkəzi rolu və təlimatı hiss edilib.

### Ermənilərdə "irqi saflıq" anlayışı

Nasistlər ötən əsrin 30-cu illərində Almaniyada "irqi saflıq qanunu"nu yaydılar. "İrqi saflıq" üçün insanların törəməsində, dövlət tənzimləməsində lazımlı olduğuna inanan Adolf Hitler "İrsi xəstəliyə sahib uşaqların əngəllənməsi Aktı"nı imzaladı. Digər hökmlərin yanında alınan bu tədbir "istənməyənlərin" uşaq sahibi olmasına maneə törədir və bəzi fiziki ya da zehni əlillərin məcburi olaraq qısırlaşdırılmasını nəzərdə tuturdu. Qanunun verildiyi tarixdən sonrakı 18 ay ərzində 400 min insana təsir edəcəkdi. Bunun adı, başqa sözlə, "yeni nizam" idi. Faşist "yeni nizam" anlayışı ilə Njdenin "Tsexakron"u arasında bənzərliklər vardır. Hitlerin "yeni nizam"ından qaynaqlanan "İrq dövləti" anlayışı Ermənistanda da eyni anlama gəlir. Bu gün Ermənistanda bir nəfər də olsun başqa qövmdən millət yoxdur. Faşizm odur ki, içindən bütün sevmədiklərinin ya fiziki məhvinə nail olursan, ya da onları köləyə çevirirsən. Vaxtilə Ermənistan deyilən bu ölkədə yaşayanlar–Azərbaycan türklərinin heç bir haqq və hüququ yox idi və indi özləri yoxdur. Bu gün bir nəfər də olsun azərbaycanlının bu ölkədə yaşamaması dediyimizin sübutudur. Azsaylı xalq kareqoriyasına girən yezidilər isə erməni cəmiyyətinin əsiri durumundadır. Onlar döyülür, söyülür, malları, qoyunları əllərindən alınır… Amma gedəcəkləri ölkə yoxdur. Yezidilər ermənilərə ona görə lazımdır ki, yezidi kürdlərin lideri Aziz Tamoyana aid dəstənin vasitəsilə hərdən küçəyə çıxarılıb Türkiyənin əleyhinə nümayiş keçirsinlər, "Öcalana azadlıq!" deyə bağırsınlar və yaxud Azərbaycana düşmən olduqlarını ifadə etsinlər. Son 44 günlük müharibədə də belə oldu. Onlar cəbhəyə göndərildi, öldüklərində onların meyitlərinə belə sahib çıxılmadı. Kütləvi köçürmə siyasəti, cinayətlər, müharibə məhbuslarının topluca öldürülməsi, onların zəhərli mədənlərdə işlədilməsi, işgəncələr, əsir və girovların orqanlarının alveri... Bu, ermənilərin Hitlerin irqçilik fəlsəfəsini əməlli-başlı mənimsədiyinin göstəricisidir.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

## “Azexport” ABŞ bazarlarına ixracı artırır



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu “Azexport” portalı Azərbaycan məhsullarının Amerika Birləşmiş Ştatlarına (ABŞ) ixracını artırır.**

İİTKM-dən aldığımız məlumata görə, bu məqsədlə ABŞ şirkətləri ilə yerli istehsalçıların görüşləri təşkil olunub. Hazırda portalın dəstəyi ilə ABŞ bazarına Azərbaycanın aqrar sənaye məhsulları, həmçinin müxtəlif qənnadı məmulatlarının ixracı davam etdirilir. İxrac olunan malların struktur və kateqoriyasının genişləndirilməsi məqsədilə mövcud əməkdaşlıq növbəti mərhələyə keçirilib. Belə ki, “Azexport” portalının dəvəti ilə ABŞ-da yerləşən bir sıra idxalçı şirkətin nümayəndəsi ötən həftə Bakıya səfər edib. Onlar respublika ərazisində 15-dən artıq istehsal və emal müəssisəsində olublar.

Görüşlər, əsasən, qənnadı məhsulları (tort, ekler, vafli, peçenye), mineral su, spirtsiz içkilər, meyvə şirələri, hazır qidalar, konservləşdirilmiş və dondurulmuş meyvə-tərəvəz, ədviyyat və quru meyvə sektorunda fəaliyyət göstərən şirkət nümayəndələri ilə reallaşıb.

Səfər çərçivəsində ölkədə xarici investisiya əsaslı, ixrac yönümlü məhsul istehsalı ilə məşğul olan müəssisənin qurulması imkanları da araşdırılıb. Növbəti mərhələdə idxalçı şirkətin ABŞ bazarı üçün öz məhsullarını Azərbaycanda istehsal etməsi nəzərdə tutulub.

## Azərbaycanda 2,5 mindən çox minik avtomobili istehsal edilib

**Bu ilin yanvar–iyul aylarında respublikamızda 2 min 524 minik avtomobili, 290 yük avtomobili istehsal edilib.**

Dövlət Statistika Komitəsinin bununla bağlı məlumatında ötən ilin müvafiq dövrü ilə müqayisədə minik avtomobili istehsalının 35,3 faiz, yük avtomobili istehsalının isə 42,2 faiz artdığı bildirilib.

Qeyd edək ki, cari ilin avqust ayının 1-i vəziyyətinə hazır məhsul ehtiyatı müvafiq olaraq 373 minik, 62 isə yük avtomobili təşkil edib.



# Vergi islahatları iqtisadi yüksəlişə əlverişli şərait yaradır

**Son illərdə ölkədə tətbiq edilən vergi güzəştləri və sosial sığorta üzrə fərqli rejim bu sahədə şəffaflaşmanı gerçəkləşdirib. Bu istiqamətdə həyata keçirilən islahatlar qeyri-neft sektorunun özəl bölməsində münasibətlərin şəffaflaşmasına, sahibkarların yükünün azaldılmasına, daimi iş yerlərinin və sosial təminatı olan işçi qüvvəsinin yaradılmasına müsbət təsir göstərib. Nəticədə, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə daxilolmaların artımı nəzərə çarpıb.**

Ölkədə sahibkar-dövlət münasibətlərində etimad da getdikcə güclənir. Bu isə vergi öhdəliklərinin könüllü yerinə yetirilməsində müsbət dinamika ilə müşahidə olunur. Son vaxtlar aparılan inzibatçılıq və qanunvericilik islahatları isə vergi öhdəliklərinə əməletmənin asanlaşmasını şərtləndirir, eyni zamanda, qeyri-neft sektoru üzrə büdcəyə vergi daxilolmalarının artım tempi qeyri-neft ÜDM-in artım tempini üstələyir.

Ümumiyyətlə, hazırda sosial-iqtisadi sahələrdə həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir. İqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, “kölgə iqtisadiyyatı”nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, intizamlı biznes üçün mühitin təmin edilməsi vergi siyasətinin əsas istiqamətləridir.

Son illər ərzində vergi sistemində həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində sahənin maddi-texniki bazası müasirləşdirilib, vergi inzibatçılığı texnoloji cəhətdən yenidən qurulub, biznes mühiti münbitləşib. Nəticədə, vergi daxilolmalarında davamlı artım gerçəkləşib. Dövlət Vergi Xidmətinin bununla bağlı yaydığı məlumatda bildirilir ki, 5 ildən çox bir müddətdə həyata keçirilən təşviq əsaslı vergi siyasəti əmək bazarında əhəmiyyətli dəyişikliklərə səbəb olub.

Bu istiqamətdə uğurla gerçəkləşdirilən layihələr sayəsində cari ilin 7 ayı ərzində vergi daxilolmaları 10 milyard manatı keçib. Hesabat dövründə Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 10 milyard 272,8 milyon manat vergi daxil olub. Vergi daxilolmalarının 6 milyard 944,1 milyon manatı və yaxud 67,6 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. Bu isə 1 il əvvələ nisbətən 12,6 faiz çoxdur.

Azərbaycanda iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyətin– müəyyənləşdirilən hədəfə nail olmaq üçün dövlət tərəfindən dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsində qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlərə nail olunur.



Son illərdə bütün bu istiqamətlərdə gerçəkləşdirilən təşəbbüslər ölkəmizin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırıb, sahibkarlıq sahəsində sürətli inkişafın davamlılığını təmin edib və rəqabət qabiliyyətini möhkəmləndirib, eyni zamanda, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırıb.

Azərbaycanda hazırda “kölgə iqtisadiyyatı”nın azaldılması məqsədilə vergi qanunvericiliyində dəyişikliklər edilməklə yanaşı, vergi inzibatçılığında da mütəmadi olaraq təkmilləşdirmələr aparılır. Bu, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsini, vergiödəyicilərinə xidmətlər çeşidinin artırılmasını və özəl bölmədə biznesin fəaliyyətinə səmərəli şəraitin yaradılması şərtləndirir.

İş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun “ağardılması” və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bağlanılan əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 439 min 564 vahid artaraq bu il avqustun 1-nə 1 milyon 841 min 479-a yüksəlib. Qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 428 min 791 vahid artaraq 968 min 713 olub.

Vergi orqanları tərəfindən ictimai əməkdaşlıq nöqteyi-nəzərindən bir sıra əhəmiyyətli tədbirlər platforması da yaradılıb. Sahibkarlar, onların ictimai birlikləri, assosiasiyalar və ekspert cəmiyyəti ilə mütəmadi görüşlər çərçivəsində qarşılıqlı əlaqələr genişləndirilib. Bu görüşlərdə səsləndirilən bir çox rasional təkliflərin reallaşdırılması ilə biznes mühiti daha da təkmilləşdirilib. Bununla da sahibkarlıq fəaliyyətini təşviq edən alətlər artıb, Vergi Məcəlləsində müxtəlif dəyişikliklər edilib və fiskal maraqlar iqtisadi inkişafla uzlaşdırılıb.

İqtisadiyyatın bütün sahələrində dövlət–özəl sektor tərəfdaşlığının genişləndirilməsi və özəl sektorun iqtisadi inkişafda rolunun artırılması sahəsində həyata keçirilən tədbirlər, o cümlədən qabaqcıl təcrübəyə əsaslanan yeni qanunun qəbul edilməsi də vergi daxilolmasına mühüm təsir göstərib. Qanunun tətbiqi ilə ölkə iqtisadiyyatında investisiya fəallığının həm dinamikası, həm də keyfiyyətində yeni bir səhifə açılıb. Bu gün dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində innovativ və prioritet layihələrin reallaşdırılmasına başlanılıb.

Qarşıdakı dövrdə də vergi siyasətinin, ilk növbədə, iqtisadi təşviq, səmərəli nəzarət, rəqəmsallaşma prinsipləri əsasında həyata keçirilməsi nəzərdə tutulub. Bundan başqa, iqtisadiyyatın şaxələndirilməsi və investisiyaların cəlb olunmasında vergi siyasətinin tənzimləyici rolunun davam etdiriləcəyi, “kölgə iqtisadiyyatı” ilə sistemli mübarizənin miqyasının genişləndiriləcəyi planlaşdırılıb.

# Kənd dövlət dəstəyindən güc alır

## 7 ayda 7,5 milyard manatlıq məhsul istehsal edilib

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari ilin yanvar–iyul aylarında ölkəmizdə 7 milyard 508 milyon manat dəyərində (ötən ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox) kənd təsərrüfatı məhsulu istehsal edilib.**

Son bir ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 0,2 faiz artaraq 3 milyard 836 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,5 faiz artaraq 3 milyard 671 milyon manat olub. Azərbaycanda payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulan 995,7 min hektar sahənin 979,3 min hektarı və yaxud 98,3 faizi biçilərək məhsulu yığılıb. Sahələrdən 2937,3 min ton məhsul toplanıb, məhsuldarlıq 30 sentner olub. Məhsulun 1680,3 min tonunu və yaxud 57,2 faizini buğda, 1227,4 min tonunu və yaxud 41,8 faizini arpa, 29,6 min tonunu və yaxud 1 faizini isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil edib.

26 rayonda dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin biçini tam başa çatıb. Naxçıvan Muxtar Respublikasında və 29 rayonda biçilməsi nəzərdə tutulan sahənin 90 faizdən çoxu biçilib, digərlərində isə biçinin aparılması səviyyəsi 90 faizdən aşağı olub. Ən yüksək məhsuldarlıq Hacıqabul (1 hektardan 51,4 sentner), Ağcabədi (müvafiq olaraq 44,4), Sabirabad (43,4), Salyan (42), Bərdə (41,6), Ağdam (41,5), Saatlı (41), İmişli (39,6), Samux (37,6), Zaqatala (36,1) və Beyləqan (35,9) rayonlarında olub.

Dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsullarının digər rayonlara nisbətən daha çox istehsalı Cəlilabad (224,7 min ton), Şəki (152,7 min ton), Ağcabədi (144,9 min ton), Füzuli (130,7 min ton), Kürdəmir (125,2 min ton), Ağsu (108,2 min ton), Hacıqabul (106,2 min ton) və İsmayıllı (97 min ton) rayonlarında müşahidə olunub.7 ay ərzində ölkədə diri çəkidə 331,2 min ton ət, 1 milyon 312 min ton süd, 1 milyon 385,9 milyon ədəd yumurta, 14,2 min ton yun, 239,4 ton barama istehsal olunub. İllik müqayisədə ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz artıb.



Avqustun 1-nə kimi 1 milyon 245,7 min ton (0,2 faiz çox) tərəvəz, 429 min ton (10,3 faiz çox) bostan məhsulları, 331,1 min ton (5,1 faiz çox) meyvə yığılıb.

7 ay ərzində ölkədə diri çəkidə 331,2 min ton ət, 1 milyon 312 min ton süd, 1 milyon 385,9 milyon ədəd yumurta, 14,2 min ton yun, 239,4 ton barama istehsal olunub. İllik müqayisədə ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz artıb.

Diqqətə çatdırılan bu göstəricilər son illər ərzində kənd təsərrüfatında islahatların daha da dərinləşdirilməsi, aqrar sahəyə dövlət dəstəyi mexanizminin davamlı şəkildə təkmilləşdirilməsi və çoxşaxəli dövlət dəstəyi sisteminin yaradılması və kənd təsərrüfatı istehsalçılarına verilən birbaşa subsidiyaların əhatə dairəsinin genişləndirilməsi nəticəsində əldə edilib. Eyni zamanda, yanacaq və motor yağlarının, mineral gübrələrin, pestisidlərin, pambıq və şəkər çuğundurunun satışına, toxum və tinglərin istehsalına görə subsidiyaların verilməsi də aqrar sektorda dinamik inkişafı şərtləndirib.

Son illər respublikada aqrar sahədə istehsal vasitələrinin əldə olunmasına tətbiq olunan güzəştlərə də böyük əhəmiyyət verilib. Bu güzəştlər çərçivəsində bir sıra texnika və texnoloji avadanlıqların ölkəyə idxalı rüsumdan azad edilib, satışı subsidiyalaşdırılıb. Məsələn, fermer tərəfindən texnikanın ilkin dəyərinin 20 faiz ödənildikdə, büdcə vəsaiti hesabına idxal dəyərinin 40 faizi həcmində güzəşt edilib. Eləcə də müasir suvarma sistemləri dəsti və avadanlığının, soyuducu anbar və avadanlıqlarının alışına dövlət büdcəsi hesabına 40 faiz güzəşt olunub.

Hazırda ölkəyə idxal edilən, həmçinin yerli damazlıq təsərrüfatlardan satılan safqanlı cins damazlıq heyvanların qiymətinin 60 faizi dövlət büdcəsi hesabına subsidiyalaşdırılır, lizinq yolu ilə güzəştli satışı həyata keçirilir, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər buzova görə 100 manat, hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya verilir.

Həmçinin torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini yüksəltmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq cari ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının da ödənilməsinə başlanılıb.

Aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi və aqrotexniki xidmətlərə əlçatanlığın, toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi artıb, kənd təsərrüfat sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi barədə Sərəncamından irəli gələrək hazırlanan “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əsas fəaliyyət istiqamətlərindən biri də dayanıqlı və rəqabətli kənd təsərrüfatı və aqrobiznesin inkişaf etdirilməsidir. Bu sənəddə müəyyənləşdirilən fəaliyyətlərin uğurlu icrası nəticəsində kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal, emal, satış, o cümlədən müasir texnologiyaların tətbiqi ilə kənd təsərrüfatında məhsuldarlıq artır, həmçinin yeni iş yerlərinin yaradılması davamlı xarakter alır.

## 7 ayda qızılımız 1,2 ton çoxalıb

**2024-cü ilin yanvar–iyul ayları ərzində Azərbaycanda 1248,2 kiloqram qızıl, 1906,8 kiloqran isə gümüş istehsal edilib.**

Dövlət Statistika Komitəsinin məlumatında, eyni zamanda, ölkədə qızıl istehsalının ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz artdığı, gümüş istehsalının isə 20,1 faiz azaldığı bildirilib.

Qeyd edək ki, 2024-cü il avqust ayının 1-nə Azərbaycanda gümüş və qızıl üzrə hazır məhsul ehtiyatı müvafiq olaraq 560,2 kiloqram və 319,4 kiloqram təşkil edib.

## İlin əvvəlindən ölkə ərazisindən 16,4 milyon ton yük daşınıb



**Bu ilin yanvar–iyun aylarında Azərbaycanın nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 16407,6 min ton, yük dövriyyəsi isə 6633,5 milyon ton-kilometr olub, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 0,2 faiz və 2,4 faiz artım müşahidə edilib.**

Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildirilir ki, Şərq–Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 8170 min ton, o cümlədən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi ilə 4242,1 min ton, Şimal–Cənub nəqliyyat dəhlizi ilə 4807,7 min ton, Şimal–Qərb nəqliyyat dəhlizi ilə 3248,8 min ton, Cənub–Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 181,1 min ton təşkil edib.

Yüklərin 7506,7 min tonu və yaxud 45,8 faizi dəmir yolu nəqliyyatı, 5004,4 min tonu və yaxud 30,5 faizi avtomobil nəqliyyatı, 3896,5 min tonu və yaxud 23,7 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 59,2 faizini və yaxud 9707,6 min tonunu tranzit yüklər təşkil edib.

*Səhifəni hazırladı: Vaqif BAYRAMOV XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# COP29 yeni texnologiyalara keçidi gündəmə gətirir

**Bu gün iqlim dəyişikliyi problemi bütün dünyanı əhatə etdiyi üçün BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 190-dan çox dövlət qoşulub. Bu dövlətlər müxtəlif konfrans və seminarlar keçirərək “yaşıl” enerjiyə keçidin reallaşmasına və atmosferə karbon qazının atılmasının azaldılmasına çalışırlar. Həyata keçirilən tədbirlər sırasında konvensiya tərəfdarlarının konfransı (Conference of the Parties (COP)) xüsusi önəm daşıyır. Sayına görə 29-cu konfrans (COP29) cari ilin noyabr ayında Bakıda keçiriləcək və bu tədbir ölkəmiz üçün mühüm xarakter daşıyır.**



Azərbaycanın belə bir möhtəşəm tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. İqlim dəyişmələrinin qarşısının alınması, ilk növbədə, istixana effektini törədən qazların atmosferə buraxılmasını ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə enerji transformasiyanın əsas istiqaməti olan bərpaolunmayan enerji mənbələrindən (kömür, neft, qaz, torf, müxtəlif növ bitumlar və s.) bərpaolunan enerjiyə (günəş, külək, su axarları və s.) keçmək deməkdir.

Beynəlxalq standartlara görə, transformasiyanın vacib şərti enerji səmərəliliyidir. Səmərəlilik hər vahid enerjinin istifadəsi nəticəsində hansı dəyərdə ümumi daxili məhsul (ÜDM) istehsal olunduğuna əsaslanır. Bu zaman enerji vahidi kimi bir kiloqram neftdə olan enerjidən istifadə olunur. Dünya Bankının hesabatlarına əsasən, Azərbaycanda 2003-cü ildə bir vahid enerjinin istifadəsi nəticəsində dəyəri 4 dollar olan ÜDM istehsal olunurdu. Beynəlxalq qurumun ən son dərc etdiyi məlumatlara görə, ölkəmizdə bu rəqəm 11,6 dollar təşkil edir. Bu isə son 20 ildə Azərbaycanda enerji səmərəliliyinin təxminən 3 dəfə artdığını göstərir. Müqayisə üçün qeyd etmək lazımdır ki, bir vahid enerjinin istifadəsi nəticəsində ölkəmizdə 11,6 dəyəri olan ÜDM yaradılırsa, qonşu Rusiyada bu rəqəm 5,3, İranda 5,3, Qazaxıstanda 5,6 dollar təşkil edir. Azərbaycanın enerji səmərəliliyi sahəsində əldə etdiyi göstərici Fransa (11,1 dollar), Yaponiya (11,8 dollar), Macarıstan (11 dollar), Litva (11,8 dollar) və digər inkişaf eləmiş ölkələrlə müqayisə edilə bilər.

Enerji transformasiyası indeksinin hesablanmasında istifadə edilən digər göstərici atmosferə atılan karbon qazının ($CO_2$) emissiyasıdır. Enerji səmərəliliyi ölkədə artdığından 2000-ci illə müqayisədə karbon qazının emissiyası da 5 dəfəyə qədər azalıb.

Göründüyü kimi, enerji keçidinə xidmət edən bütün istiqamətlərdə Azərbaycan sürətlə irəliləyir. Bu, öz ifadəsini ölkədə energetika infrastrukturunun tam yenilənməsi, enerji təminatının yüksək səviyyədə və təhlükəsiz şəraitdə təmin edilməsi, sahəyə məqsədli investisiya və digər fəaliyyətlərdə tapıb. Azərbaycanın enerji transformasiya sahəsində lider olması bu fəaliyyətlərin kompleks şəkildə həyata keçirilməsinin nəticəsidir. Bu səbəbdən COP-29 sessiyasının Bakıda keçirilməsi təsadüfi xarakter daşımır və ölkədə innovasiyaların inkişafı strategiyasının nəticəsidir.

AMEA-nın Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov “XQ”nin müxbiri ilə söhbətində bu barədə danışaraq COP tədbirlərinin əsas məqsədinin də atmosferdə karbon qazının ($CO_2$) miqdarını azaltmaqla qlobal istiləşməni məhdudlaşdırmaq və sənayeləşmədən əvvəlki dövrə nisbətən 1,5 dərəcə Selsi artım həddindən çox yüksəlməsinə imkan verməmək olduğunu bildirib. İqlimşünas alim COP (Conference of the Parties), yəni Tərəflərin Konfransı adlanan bu tədbirin ölkələrin qlobal iqlim dəyişikliyi mübarizəsindəki rolunu gücləndirməyi hədəflədiyini, Dubayda keçirilən COP28 konfransında imzalanan qərara əsasən, BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) 29-cu Konfransının bu ilin noyabr ayında Bakı şəhərində gerçəkləşəcəyini, habelə COP29-un iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək üçün konkret addımlar atmaq üçün bir fürsət olacağını vurğulayıb.

S.Səfərovun fikrincə, COP29 gələcək nəsillər üçün əlverişli iqlim şəraitinin reallaşdırılması baxımdan da qlobal əhəmiyyət daşıyır. Belə ki, adıçəkilən sammitin keçirilməsi planetimizdə iqlim şəraitinin pisləşməsinin qarşısının alınması, dünyamızın təhlükəsizliyi, planetimizin ömrünün uzanması, eləcə də insanların sağlamlığına, ərzaq məhsulları ilə bol təminatına yol açacağını şərtləndirən əsas vasitədir. Buna görə də, şübhəsiz ki, sözügedən sahədə atılan addımlar gələcək nəsillər üçün bir sıra regional siyasi münaqişələrlə, ayrı-ayrı siyasi problemlərlə bağlı keçirilən tədbirlərdən daha əhəmiyyətlidir.

Alim qeyd edir ki, COP29 tədbiri Azərbaycan cəmiyyətində iqlim dəyişikliyi və ekoloji problemlər haqqında maarifləndirmə səviyyəsini artıracaq. Təbii ki, belə bir hal vətəndaşların ekoloji problemlərə qarşı daha məsuliyyətli davranış sərgiləməsinə müsbət təsir göstərəcək, eyni zamanda, Yer kürəsində gələcək nəsillərə qlobal əhəmiyyətli dirçəliş prosesinə gedən yolda cığır açacaq. Beləliklə, bu faydalar həm dünyada ekoloji dayanıqlılığı artıracaq, həm də iqtisadi inkişafa əhəmiyyətli töhfələr verəcək.

S.Səfərovun sözlərinə görə, COP29 konfransı zamanı Azərbaycan sahib olduğu zəngin mədəni irsini və gözəlliklərini dünyaya nümayiş etdirməklə yanaşı, ekoloji dayanıqlılıq və “yaşıl” texnologiyaların inkişafı istiqamətində öz səylərini də dünya ictimaiyyətinə təqdim edə biləcək: “Sammitin keçirilməsi ölkəmizin qlobal iqlim siyasətində mühüm rol oynamaq və öhdəliklərini yerinə yetirmək üçün önəmli bir fürsət olacaq. Bu tədbir zamanı iqlim dəyişikliyi ilə mübarizə sahəsində qabaqcıl təcrübələr və yeni texnologiyalar təqdim ediləcək, eləcə də yerli icmaların və qeyri-hökumət təşkilatlarının iştirakının təşviqi diqqətdə saxlanılacaq. Bu, həm də Azərbaycanın “yaşıl” enerjiyə keçid sahəsində əldə etdiyi nəticələrdə müsbət dəyişikliklərə gətirib çıxarcaq və beləliklə, “yaşıl” enerjinin dünya üzərində geniş istifadəsi bir başa Yer kürəsinə təsir göstərəcək”.

İqlimşünas alim söhbətində qlobal istiləşmənin ötən əsrin 90-cı illərindən sonra özünü daha qabarıq büruzə verməyə başladığını, bunun isə bütün dünyada, xüsusilə də Çin və Hindistanda iqtisadiyyatın sürətli inkişafı və bununla əlaqədar atmosferə atılan karbon və digər istixana qazlarının miqdarının həddindən artıq dərəcədə artması ilə əlaqələndirib. O, bundan əlavə, kənd təsərrüfatı istehsalındakı artımların da iqlimə təsirsiz ötüşmədiyini, illərlə istifadəsiz torpaqların əkin məqsədilə şumlanmasının yerin albedosunu azaltdığını, nəticədə günəşdən gələn şüaların daha çox udulmasına və temperaturun artmasına səbəb olduğunu vurğulayıb. Alim, eyni zamanda, atmosferdə aerozolların konsentrasiyasının azalması və meşələrin qırılmasının da problemi daha da kəskinləşdirdiyini bildirib.

S.Səfərov söhbətində hazırda dünyada enerji istehlakının 17,9 faizi bərpaolunan enerji mənbələrinin payına düşdüyünü xatırladıb: “2018-ci ildə dünya üzrə bərpaolunan enerji texnologiyalarına 296 milyard ABŞ dolları sərmayə yatırılıb. Bu sahə neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələr arasında da trendə çevrilib, necə deyərlər, dövlət siyasətinin tərkib hissəsi olub.

Yeri gəlmişkən, qlobal istiləşmə, dünya bazarlarında ənənəvi enerjinin qiymət dəyişikliyi, böhran və s. problemlər, həmçinin innovativ texnologiyaların əhəmiyyətinin cəmiyyət tərəfindən qəbul edilməsi təkcə Avstriya kimi ölkələrdə deyil, eləcə də bütün dünyada “yaşıl” enerji sektorunun yaxın gələcəkdə sürətlə inkişaf edəcəyini bariz şəkildə nümayiş etdirir. Bu da, öz növbəsində, gələcək nəsillərə töhfəsini verəcək.

Regional lider kimi mövqeyini gücləndirmək məqsədi olan Azərbaycan üçün isə COP29-a evsahibliyi etmək ölkənin ekoloji problemlərlə mübarizədə qlobal səylərə verdiyi töhfəni artırmağa təkandır. COP29 konfransı həm də respublikamızın beynəlxalq arenada mövqeyini gücləndirəcək və iqlim dəyişikliyi ilə bağlı qlobal müzakirələrdə ölkənin rolunu artıracaq”.

S.Səfərov söhbətində keçən il COP28 tədbirində xüsusi fond yaradılmaqla yoxsul ölkələrə yardım edilməsinin qərara alındığını, bununla da “Paris Sazişi”nin tələblərinin yerinə yetiriləcəyi təqdirdə iqlim dəyişikliyi ilə bağlı müəyyən uğurlara imza atılacağı əminliyini də bildirib. Alim COP28-dən ötən müddətdə bu istiqamətdə elə bir ciddi nəticə nəzərə çarpmadığı təəssüflə vurğuladı və builki sammitdə qarşıya yeni tələblər qoyula biləcəyini, fondun prinsiplərinin yenilənəcəyini də istisna etmədi. Bu konfransda veriləcək qərarların isə planetimiz və gələcək nəsillər üçün atılan uğurlar addımlar olacağına əminliyini vurğulayıb.

İqlimşünas alim COP29-un innovasiya və texnologiya sahəsinə də təsirsiz ötüşməyəcəyini xüsusi qeyd edib: “İstixana qazları emissiyasını 35 faiz azaltmağa çalışmaqla “yaşıl” enerjidən istifadəni genişləndirmək yeni texnologiyalar tələb edir. Ənənəvi yanacağı birbaşa “yaşıl” enerji ilə əvəzləmək mümkünsüzdür. Belə etsək, iqtisadiyyat çökər. Kompensasiya üçün “yaşıl” enerjidən istifadə etmək lazım olur. Alternativ enerjinin ənənəvi yanacağın yerini tutması üçün böyük texnoloji güc lazımdır. Məsələn, külək enerjisindən istifadə edilməsi barədə danışırıq. Amma anlamaq lazımdır ki, bu, söz ilə asandır. Bunun üçün yeni texnologiya, mexanizm, xüsusi avadanlıqlar zəruridir.

Mütəxəssisin sözlərinə görə, bunları gerçəkləşdirdikdən sonra isə həmin avadanlıqları daim təkmilləşdirmək lazımdır ki, onların faydalı iş əmsalı daha böyük olsun: “Məncə COP29 böyük töhfələrindən birini elə texnologiya sahəsinə verəcək. Dünyamızın ildən-ilə müasirləşdiyini nəzərə alsaq, gələcək nəsillər üçün ən gözəl yatırım da məhz budur”.



# İqlim dəyişikliyi Xəzərin problemlərini kəskinləşdirir

**Xəzər dənizinin dayazlaşması eyni sürətlə davam edərsə, yaxın gələcəkdə sahilyanı ölkələrin sosial-iqtisadi problemləri yaranacaq. Rusiya Elmlər Akademiyası P.P.Şirşov adına Okeanologiya İnstitutunun baş elmi işçisi, professor-okeanoloq Andrey Kostyanoy bu barədə mediaya müsahibəsində bildirib. Professor daha sonra iqlim dəyişikliyinin Xəzərin səviyyəsinə birbaşa təsir göstərdiyini, dənizin su balansının dəyişdiyini vurğulayıb.**

Kostyanoy qeyd edib ki, dənizin su balansının əsas komponentini çayların axını təşkil edir. Təəssüf ki, hazırda çaylarda da azalma prosesi müşahidə olunur. Səbəb isə onların su hövzələrinə düşən yağıntıların miqdarının aşağı düşməsi, havanın temperaturunun artması, eləcə də Xəzər dənizində buxarlanmanın güclənməsidir.

Professor-okeanoloqun sözlərinə görə, Xəzərin dayazlaşması problemində insan fəaliyyəti o qədər də böyük rol oynamır: “Xüsusilə, 1995-ci ildən – dəniz səviyyəsinin daim azalmağa başladığı müasir dövrdən etibarən, iqlim faktorları ilə müqayisədə Xəzərin dayazlaşmasında insan fəaliyyəti nəzərəçarpacaq dərəcədə az rol oynayır”.

Xəzər dənizinin dayazlaşmasının fəsadlarından danışan A.Kostyanoy vurğulayıb ki, bu tendensiya 5 sahilyanı dövlətə ciddi problem yaradacaq. “Əgər dayazlaşma hələ bir neçə onilliklər ərzində belə davam edərsə, gələcəkdə ekoloji problemlərlə yanaşı, həlli zəruri olan sosial-iqtisadi problemlər də yaranacaq. Bunların arasında limanların və dəniz infrastrukturunun fəaliyyətinin pozulması, gəmi daşımalarının azalması kimi amillər də var”, – professor-okeanoloq qeyd edib. A.Kostyanoyun fikrincə, bu, gəlirlərin azalması, işsizlik, əmək miqrasiyası kimi sosial problemlərə gətirib çıxara bilər.

Noyabrda Bakıda keçiriləcək COP29-dan gözləntiləri haqda danışan professor bu məsələ ilə bağlı mütəxəssislər arasında dialoqa əminliyini də vurğulayıb. “Ümid edirəm ki, iqlim sammiti Xəzər dənizinin dayazlaşması problemlərinə dair mütəxəssislərin və qərar qəbul edən şəxslərin görüşlərinin keçirilməsi üçün mühüm platformaya çevriləcək”, – deyə bildirib.

# Təmiz gələcəyin maliyyə təminatı

**Millətlər Birliyi təşkilatının (“Commonwealth”) Baş katibi Patrisia Skotlend “Press Trust of India” nəşrinə müsahibəsində COP29-un iqlim fəaliyyəti və maliyyələşdirmə arasında fərqi aradan qaldırmaq üçün yeganə şans olduğunu bildirib. O, eyni zamanda, bunu ölkələr arasında etimadın bərpası və insanların həyat şəraitlərinin qorunması üçün vacib şərt kimi dəyərləndirib.**

Baş katib iqlim dəyişikliyi probleminin həlli istiqamətində ölkələrin birlikdə fəaliyyət göstərmələrinin zəruriliyini də qeyd edib və qlobal səviyyədə həll olmadan bu problemin aradan qaldırılmasının mümkünsüzlüyünü diqqətə çatdırıb. İnkişaf etmiş ölkələr və böyük istehsalçılar bu məsələni ciddi qəbul etməlidirlər.

P.Skotlend daha sonra bildirib ki, iqlim böhranına tarixən cavabdeh olan inkişaf etmiş ölkələr 2009–2020-ci illərdə inkişaf etməkdə olan dövlətlərə iqlim dəyişikliyinin öhdəsindən gəlməyə yardım göstərmək məqsədilə ildə 100 milyard ABŞ dolları ayırmağı vəd etmişdilər: “Lakin maliyyə yardımının əksəriyyəti kasıb ölkələrin borc yükünü artıraraq kreditlər şəklində verildiyi üçün bu məqsədə tam nail olunmayıb. Bu ölkələrin iqlim böhranı ilə effektiv mübarizə aparmaq üçün hazırda trilyonlarla dollar məbləğində maliyyə yardımına ehtiyacı var”.

# Azərbaycan regionun “yaşıl” enerji xəritəsini formalaşdırır



**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) fəal iştirak edərək iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasına dəstək olacaq tədbirlər və müzakirələr təşkil etməyi planlaşdırır. Bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev mediaya açıqlamasında deyib.**

Digər milli və beynəlxalq neft şirkətləri ilə birgə səylərin vacibliyini vurğulayan vitse-prezidentin sözlərinə görə, strateji tərəfdaşlıqlar və perspektivli layihələr vasitəsilə SOCAR gələcək nəsillər üçün dayanıqlı gələcəyi təmin etməyi hədəfləyir. “SOCAR strateji mövqe tutur ki, regionun gələcək enerji xəritəsinin formalaşmasında əsas rol oynasın”, – deyə o, əlavə edib.

SOCAR-ın karbohidrogen və aşağı karbonlu biznes portfelini tarazlaşdırmaq məqsədilə ənənəvi neft-qaz müəssisəsindən 2035-ci ilə qədər enerji sahəsində şaxələndirilmiş lider şirkətə çevrilmək planları və addımları barədə məlumat verən Ə.İsayev təmsil etdiyi qurumun karbonsuzlaşdırmaya sadiqliyini vurğulayaraq emissiya səviyyəsini qlobal sənaye liderlərinin səviyyəsinə uyğunlaşdırmaq niyyətində olduğunu bildirib.

SOCAR-ın vitse-prezidenti deyib ki, hazırda SOCAR strateji qlobal oyunçularla əməkdaşlıq edir, o cümlədən 2 günəş və 1 külək elektrik stansiyası da daxil olmaqla 1 qiqavat gücündə bərpaolunan enerji mənbələrinin, həmçinin ekoloji cəhətdən təmiz hidrogen istehsalına yönəlmiş 2 qiqavat gücündə dəniz külək enerjisi layihəsinin hazırlanmasına başlayıb.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# Azərbaycan tarixinin bir əsrlik mətbu salnaməsi

**(əvvəli qəzetin ötən sayında)**

***Ötən əsrin 20-ci illərinin əvvəllərində "Kommunist" qəzetinin redaktorları çox tez-tez vəzifələrindən uzaqlaşdırılır, başqaları ilə əvəz edilirdilər. Bu, yüksək dairələrdə mövcud olan intriqalarla, dedi-qodularla bağlı idi. Aşağıdakı redaktorların təyin edilməsi və işdən çıxarılması ardıcıllığını arxiv sənədləri və qəzetin 1920-ci il aprelin 30-dan 1928-ci il dekabrın 31-dək olan nömrələri əsasında cədvəl şəklində təqdim edirik:***

**Qəzetin ilk redaktorları**

| № | Soyadı, adı, atasının adı | Nə vaxtdan | Nə vaxtadək |
|---|---|---|---|
| 1. | Qarayev Ə.A. | 30.04.1920 | 19.08.1920 |
| 2. | Yusifzadə A.B. | 20.08.1920 | 29.03.1921 |
| 3. | Talıblı B.A. | 30.03.1921 | 15.04.1921 |
| 4. | Redaksiya heyəti | 18.04.1921 | 16.10.1921* |
| 5. | Cəbiyev H.P. | 02.05.1921 | 02.01.1922 |
| 6. | Qarayev Ə.A. | 03.01.1922 | 18.04.1922 |
| 7. | Redaksiya heyəti | 19.04.1922 | 18.05.1922* |
| 8. | Axundov R.Ə. | 19.05.1922 | 19.07.1923 |
| 9. | Cəbiyev H.P. | 20.07.1923 | 23.07.1923 |
| 10. | Redaksiya heyəti | 24.07.1923 | 11.10.1923* |
| 11. | Cəbiyev H.P. | 11.10.1923 | 17.03.1924 |
| 12. | Qarayev Ə.A. | 18.03.1924 | 09.05.1924* |
| 13. | Cəbiyev H.P. | 10.05.1924 | 27.07.1927 |
| 14. | Redaksiya heyəti | 23.07.1927 | 20.11.1927 |
| 15. | Qasımov Y.İ. və Triniç Ə. | 21.11.1927 | 1931 |

* Qəzet 1921-ci il aprelin 18-dən oktyabrın 16-dək "Redaksiya heyəti" imzası ilə çıxıb. Azərbaycan K(b)P MK-nın siyasi və təşkilat şöbəsinin 1921-ci il mayın 2-də keçirilən iclasında isə göstərilir ki, "Azərbaycan füqərası" və türkcə "Kommunist" qəzetinin redaktoru vəzifəsinə H.Cəbiyev təyin edilib.

** Qəzet 1922-ci il aprelin 19-dan mayın 18-dək "Redaksiya heyəti" imzası ilə çıxıb. 1922-ci il aprelin 18-də isə Azərbaycan K(b)P MK Rəyasət Heyəti Ruhulla Axundovu qəzetə redaktor təyin edib.

*** Azərbaycan K(b)P MK-nın qərarına uyğun olaraq 1923-cü il avqustun 20-dən 1923-cü il oktyabrın 7-dək qəzetin redaktoru Həbib Cəbiyevi Məmməd Səid Ordubadi və Əhməd Triniç əvəz ediblər.

**** Azərbaycan K(b)P MK Rəyasət Heyəti 1924-cü il martın 17-də Ə.Qarayevi, 1924-cü il mayın 10-da isə H.Cəbiyevi redaktor təyin edib. Qəzeti isə 1924-cü ilin aprelində də H.Cəbiyev imzalayıb.

***** 1927-ci ilin yazı və yayında H.Cəbiyev Almaniyada – San-Byazendə müalicə olunub, amma qəzet həmin dövrdə də onun imzası ilə nəşr edilib.

## "Millətçilik yuvası"

Qəzetin birinci rəsmi redaktoru vəzifəsinə Əliheydər Qarayev, məsul katib vəzifələrinə isə – Seyid Cəfər Cavadzadə (Pişəvəri) və Nemət Bəsir Hacıyev təyin ediliblər. Ə.Qarayev bir neçə dəfə fasilələrlə qəzetin məsul müdiri (redaktoru) təyin edilib, bəzən də Azərbaycan K(b)P MK-nın göstərişi ilə qəzetə nəzarət edib, sanki, senzor funksiyasını yerinə yetirib.

Çox ziddiyyətli bir şəxs olan Ə.Qarayev ilk vaxtlar hərbi-dövlət işləri və siyasi intriqalarla daha çox məşğul idi. Buna görə də "Kommunist" qəzetindəki iş bir qədər ikinci plana keçmişdi. Lakin o, qəzetə ikinci dəfə redaktor təyin olunduqdan sonra (1922-ci il yanvarın 3-dən mayın 18-dək) "can-başla işə qoşularaq" həm redaksiyada, həm də jurnalistlər arasında "millətçi"ləri – Azərbaycan ziyalılarının ən yaxşı nümayəndələrini təqib etməyə başlamışdı.

Ə.Qarayev sonralar da belə işlərlə məşğul olmuşdu. Məsələn, 1922-ci il martın 2-də o vaxtkı daxili işlər xalq komissarı Həmid Sultanovun qəzetdə "Yoxsul" imzası ilə məqaləsi dərc olunmuşdu. Məqalədə 1912-ci ildən 1922-ci ilə qədər Azərbaycandan Rusiyaya aparılan konkret məhsullar haqqında arxiv sənədlərinə əsaslanan məlumat verilmişdi. Eyni zamanda, göstərilmişdi ki, aparılan çeşidli məhsulların əvəzində Rusiyadan Azərbaycana ərzaq məhsulları adı ilə qapısı möhürlü, boş vaqonlar gətirilirmiş.

Əvvəllər belə şeylərin mövcudluğundan xəbərsiz olan müəllif ümidlə bildirmişdi ki, guya, sovet hakimiyyəti illərində daha bu sayaq hallara yol verilməyəcək. Ertəsi gün – 1922-ci il martın 3-də Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun xüsusi iclasında H.Sultanov tutduğu vəzifədən azad edilib və elə iclasdaca həbs olunub. Ə.Qarayev isə "ilan yuvası" olan "Kommunist" qəzeti redaksiyasını "millətçi ünsürlərdən təmizləmək" üçün növbəti tapşırıq alıb.

1924-cü il aprelin 18-də Azərbaycan K(b)P MK-nin ikinci katibi, 27 yaşlı gənc vətənpərvər Əyyub Xanbudaqov "Kommunist" qəzetində "Milli məsələyə dair" adlı məqalə ilə çıxış etmişdi və bildirmişdi ki, partiyanın milli məsələyə dair göstərişləri yerinə yetirilmir, əksinə, Azərbaycanda milli fəhlə kadrlarının hazırlanmasının qarşısı alınır, azərbaycanlılar fabrik və zavodlarda ayrı-seçkilik nəticəsində işə qəbul edilmirlər. Bununla da milli məsələ nəzərdə tutulanın 0,01 faizi qədər də yerinə yetirilməyib.

Cəmi bir neçə gün sonra – 1924-cü il aprelin 27-də öz işinə başlayan XIII Bakı partiya konfransı gündəlikdəki məsələləri "unudub", ikigünlük işini Əyyub Xanbudaqovun "millətçiliyini" araşdırmağa həsr edib və Ə.Qarayevə tapşırılıb ki, "Kommunist" qəzetinin redaksiyasında kök salmış sovet hakimiyyəti düşmənlərini – millətçiləri üzə çıxarıb tapsın.

Ə.Qarayev qəzetin redaktoru Həbib Cəbiyevi müəyyən müddətə tutduğu vəzifədən kənarlaşdırıb, sözün tam mənasında, redaksiyanı yüksək mədəniyyətli Azərbaycan ziyalılarından təmizləməyə başlayıb. O, ziyalıların bir çoxunu xırda burjuaziyanın əlaltısı adlandırıb, bir qismini işdən qovub, digərlərini isə tənbeh edib. Ə.Qarayevin güdazına gedənlər arasında Əbdürrəhim bəy Haqverdiyev, Salman Mümtaz, Akif Səfvət, Cahangir Nağıyev, Ağababa Yusifzadə, Cəfər Cabbarlı, Mir Seyfəddin Kermanşahlı və b. var idi.

Bununla belə, Ə.Qarayev, eyni zamanda, ən məhsuldar müəlliflərdən biri idi və müxtəlif mövzularda olan yazıları ilə tez-tez qəzet səhifələrində çıxış edirdi.

Qəzetin ikinci rəsmi redaktoru Ağababa Yusifzadə olub (1920-ci il avqustun 20-dən 1921-ci il martın 29-a kimi). O, təkcə "Kommunist" qəzetinin əməkdaşları və müxbirlərinin deyil, həm də Azərbaycanın bütöv bir nəsil jurnalist kadrlarının tərbiyə edilməsi və hazırlanmasında böyük rol oynayıb. Ağababa Yusifzadə eyni zamanda, jurnalistika və stenoqrafiya kurslarının da direktoru idi. 1921-ci il martın sonlarında Ağababa Yusifzadəyə böhtan atılıb, o, arvadını öldürməkdə günahlandırılıb və məsuliyyətə cəlb edilib, lakin xeyli sonralar bəraət alıb.

Qəzetin üçüncü rəsmi redaktoru Böyükağa Talıblı idi (1921-ci il martın 30-dan 1921-ci il aprelin 15-dək). B.Talıblı xalq ədliyyə komissarı vəzifəsinə təyin edildiyindən qəzetdən gedib, lakin redaksiya ilə əməkdaşlığını davam etdirib.

Qəzetin ən tanınmış redaktoru Həbib Cəbiyev olub. O, 4 dəfə fasilələrlə (1921-ci il mayın 2-dən 1922-ci il yanvarın 2-dək, 1923-cü il iyulun 20-dən 23-dək, 1923-cü il oktyabrın 11-dən 1924-cü il martın 17-dək, 1924-cü il mayın 10-dan 1927-ci il iyulun 27-dək) bu vəzifəyə təyin olunub.



Həbib Cəbiyevin redaktorluğu ilə qəzet bütün sahələrdə inkişaf edib, respublikanın rəhbər dairələri onunla hesablaşıb. Cəbiyev cəsarətli rəhbər idi və tez-tez polemik məqalələr dərc edirdi ki, bunlar da dəfələrlə onun müəyyən müddətə işdən kənarlaşdırılmasına səbəb olub. Yuxarıda qeyd edildiyi kimi, Həbib Cəbiyev 1924-cü ilin aprelində Azərbaycan K(b)P MK katibi Ə.Xanbudaqovun məlum məqaləsini dərc etdikdən sonra partiya-sovet rəhbərliyi – S.Kirov, L.Mirzoyan, Ə.Qarayev, D.Bünyadzadə və başqaları milli özünüdərkin inkişaf etdirilməsini istəyən Azərbaycan ziyalılarına qarşı açıq və güclü hücuma keçiblər. Milli ziyalılar millətçilikdə və pantürkizmdə günahlandırılıblar. Onlardan tələb olunub ki, milli vətənpərvərliyi ümumittifaq vətənpərvərliyi ilə əvəz etsinlər, ümumittifaq kosmopolitizminə keçsinlər və açıq elan etsinlər ki, onların bir ümumi vətənləri var, o da SSRİ-dir.

Həbib Cəbiyev 1926-cı ilin ikinci yarısından "böhtançı üçlükdən" – Levon Mirzoyan və ona əlaltılıq edən Əliheydər Qarayev və Dadaş Bünyadzadədən çəkinməyə başlayıb. Bu üçlük 1927-ci ildə müvəqqəti olaraq Mircəfər Bağırov kimi güclü rəqib üzərində "qələbə" çaldıqdan sonra Həbib Cəbiyev millətçilik mövqeyindən əl çəkib və "Kommunist"in səhifələrində tanınmış şair və yazıçıların, publisistlərin yazılarının dərc olunması nadir hadisəyə çevrilib. Hətta, bu dövrdən etibarən Həbib Cəbiyevin özünü qorumaq üçün "təhlükəli türk millətçiliyi"nin təzahürlərindən yazmağa başlayıb.

Artıq qəzetin bütöv səhifələri beynəlxalq mövzulara və reklamlara həsr edilib, səhifələrin hər şeylə doldurulmasına çalışır. Hətta ən yaxşı fəhlə və kəndli müxbirlərinin, ziyalıların nümayəndələrinin yazıları qəzalar üzrə icmal şəklində dərc edilib. Tanınmış ziyalı müxbirlərin bir çoxu "Kommunist" qəzetindən soyuyub, daha ona yazı göndərməyiblər. Bunlardan Murtuza Nağıyevi, Əhməd Rəcəblini, Əliağa Vahidi, Əli Vəliyevi, Əfrasiyab Bədəlbəylini və b. göstərmək olar. Bu dövr "Kommunist" qəzetinin böhranlı dövrü idi.

Lakin ehtiyatlanmaq Həbib Cəbiyevi xilas edə bilməyib. 1927-ci ilin yazında o, hücumlara məruz qalıb və bu dəfə birdəfəlik olaraq qəzetdən uzaqlaşdırılıb. Özünün, dostlarının və qohumlarının dəfələrlə Azərbaycan K(b)P MK-ya müraciətindən sonra ağır vərəm xəstəliyindən müalicə olunmaq üçün ona cüzi miqdarda vəsait ayrılıb.

Qəzetin beşinci redaktoru Ruhulla Axundov olub (1922-ci il mayın 19-dan 1923-cü il iyulun 19-dək). O, yaxşı tərcüməçi və redaktor idi, amma daha çox partiya rəhbərliyində işləməyə meylli idi və MK-ya göndərdiyi çoxsaylı yazılı ərizələri bunu sübut edir.

1927-ci il noyabrın 21-dən qəzeti Yusif Qasımov və Əhməd Triniç birlikdə redaktə etməyə başlayıblar. Rəsmi olaraq Y.Qasımov redaktor təyin edilib, əslində isə o, MK-da məsul vəzifədə işləyirdi, redaksiyadakı işi hiss olunacaq dərəcədə deyildi. İşin bütün ağırlığı əvvəllər qəzetin məsul katibi olmuş, indi isə redaktorun müavini təyin edilən Ə.Triniçin (təxəllüsü – "Bədi") üzərinə düşüb. Qəzeti onların hər ikisi birlikdə imzalayıblar. Triniç əslən alban idi və İstanbulda universitet təhsili almışdı. Partiya fəallarından idi, kommunizm ideyalarına fanatikcəsinə inanırdı, sərt tədbirlər tərəfdarı idi. Öz məqalələrində ehtiyatsızlıq ucbatından cüzi qeyri-bolşevik deyimlər işlətmiş şəxsləri tam kəskinliyi ilə tənqid edirdi və onların güdaza getmələrində günahı az olmayıb.

Redaktorları, bir qayda olaraq, Azərbaycan K(b)P Mərkəzi Komitəsi təyin edirdi. İlk dövrlər üçün təyinatlar barədə məlumatı yalnız qəzetin öz səhifələrində tapmaq mümkündür. Redaktorun təyin edilməsi barədə erkən dövr arxiv sənədini C.Məhərrəmli Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivindən aşkar edilb. Bu, Həbib Cəbiyevin "qəzetə məsul müdir təyin edilməsi" barədə Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürolarının 1921-ci il 2 may tarixli protokoludur. Arxivdə "Kommunist" qəzetinə aid saxlanılan ən erkən sənəd 1920-ci il mayın 27-si tarixinə aiddir və ilk dəfə bu sətirlərin müəllifləri tərəfindən aşkar edilərək elmi dövriyyəyə daxil edilib.

Azərbaycan K(b)P Mərkəzi Komitəsi və Bakı Komitəsinin rəhbər dairələrində baş verən çoxsaylı dedi-qodu və intriqalar müxtəlif səviyyələrdə tez-tez kadr dəyişmələrinə səbəb olub. "Kommunist" qəzetində də belə idi – 1920-ci il mayın 30-dan 1922-ci il mayın 19-dək qəzetə 8 redaktor təyin edilib.

Bir sıra hallarda "Kommunist" qəzeti ilə bağlı sənədlərdəki məlumatlar bir-biri ilə kəskin ziddiyyət təşkil edir. Bəzən, redaksiyaya təyin edilmiş redaktor təkrar təyin edilib, yaxud da redaksiyaya çatmamış başqası ilə əvəz edilib. Məsələn, Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürolarının 1922-ci il yanvarın 3-də birgə keçirdikləri iclasın 1 saylı protokolunda göstərilir ki, türkcə "Kommunist" qəzetəsinin müdiri Əliheydər Qarayev, onun müavini isə Məmməd Səid Ordubadi təyin edilir". Azərbaycan K(b)P MK-nın Təşkilat bürosunun 1922-ci il 28 yanvar tarixindən göstərilir ki, türkcə "Kommunist" qəzetəsinin müdiri Ə.Qarayev təyin edilir. Redaktorların dəyişdirilməsi məsələsi başqa sənədlərdə də öz əksini tapıb. Məsələn, Azərbaycan K(b)P MK Plenumunun 1923-cü il 16 mart tarixli iclasında R.Axundov redaktor təyin edilib.

Tədqiq olunan dövrlə bağlı sonuncu dəyişdirilmə 1927-ci il iyunun 20-də Həbib Cəbiyevin tutduğu vəzifədən azad edilməsi və 1927-ci il noyabrın 19-da yeni redaktor – Yusif Qasımov və onun müavini Əhməd Triniçin təyin edilməsidir. Bir məsələni də qeyd edək ki, protokollarda göstərilən təyinatlarla qəzetin səhifələrində redaktorların özlərinin imzaları arasında da xeyli fərq var. Bu, redaktorların 1920-1928-ci illərdəki fəaliyyətləri ilə bağlı yuxarıda göstərilən cədvəldən də aydın görünür.

**(ardı var)**

***Elmar MƏHƏRRƏMOV,***
***tarix üzrə fəlsəfə doktoru, AMEA Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi***

# Sumqayıt məktəblilərinin "yaşıl" səfəri

**Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar olaraq Sumqayıt şəhərindən bir qrup məktəblinin Quba rayonuna ekskursiyası təşkil edilib.**

Şagirdlərin Şimal bölgəsinin gözəl diyarına səfərini Sumqayıt Bələdiyyəsi təşkil edib. 50 nəfər şagirdin ekskursiya xərclərini şəhərin yerli özünüidarəetmə orqanı ödəyib. Məktəblilər ekskursiya zamanı bölgənin təbiəti ilə daha yaxından tanış olub, ətraf mühitlə bağlı bilgilərini əyaniləşdirib, mənalı əyləncə və istirahət imkanlarından bolluca faydalanıblar.



Səfərin təşkilatçıları məktəblilərə Prezident İlham Əliyevin Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamınının mahiyyəti və noyabr ayında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu "Tərəflər Konfransı (COP)" barədə də ətraflı bilgi veriblər.

Ekskursiya uşaqlarda zəngin təəssürat yaradıb, unudulmaz xatirəyə çevrilib.

***Ə.ƏLİYEV***
***XQ***

# Keşikçidağ kurqanı 3 min illik tarixi saxlancdır

**Son illər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tabeliyində olan qoruqlarda tarixi məkanların tədqiqi istiqamətində uğurlu layihələr icra edir. Bu yaxınlarda qurumun dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində 3 min il yaşı olan kurqan aşkarlayıblar.**





Arxeloji qazıntılar institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəxtiyar Cəlilovun rəhbərliyi ilə aparılıb. Qoruq ərazisində həyata keçirilən axtarış işlərinin əhəmiyyəti barədə XQ-yə məlumat verən Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynli bildirdi:

– Dövlət Xidməti nəzarətində olan qoruqlarda təmir-bərpa işləri aparmaqla yanaşı, elmi axtarışları da başlıca vəzifə hesab edir. Son bir ildə həm dövlət qoruqlarında, həm də arxeoloji abidələrdə bir neçə alim elmi axtarışlara cəlb edilib. Keşikçidağ ərazisində aparılan tədqiqatlar da bu qəbildəndir. Ən qədim yaşayış məskənlərindən biri olan Keşikçidağda qədim dövrlərdən mövcud olan yaşayış yerlərinin, ayrı-ayrı tarixi dövrlərdə inkişaf tapmış mədəniyyətlərin müxtəlif aspektlərdən araşdırılması və öyrənilməsi istiqamətində aparılan işlər son illərdə daha da genişlənib.

Arxeoloji qazıntılar zamanı əldə edilən yeraltı nümunələri, tarixi abidələr uzaq keçmişimizin və zəngin mədəniyyətimizin öyrənilməsində xüsusi əhəmiyyətlidir. "Keşikçidağ" dövlət qoruğunun ərazisi ta daş dövründən başlayaraq, müasir dövrə qədər olan tarixi, memarlıq, dini abidələrlə yanaşı, arxeoloji maddi-mədəniyyət nümunələri ilə də zəngindir. Qoruq yaradıldığı gündən etibarən Keşikçidağ mağaralar kompleksinin ərazisində ardıcıl olaraq elmi tədqiqat işlər aparlıb, qiymətli məlumatlar əldə edilib.

Araşdırmalar zamanı müəyyən olunub ki, üzəri torpaq və daş örtüklü olmaqla 150-dək kurqan mövcuddur. Qoruğun yerləşdiyi Ceyrançöl ərazisində indiyədək heç bir kompleks elmi-tədqiqat işləri aparılmamışdır. 3 ildir Keşikçidağda arxeoloji qazıntılar və "Yay məktəbi" adlı layihə aparılır, zəngin maddi-mədəniyyət nümunələri əldə edilir və bütün bu tapıntılar qoruğumuzun fondunu zənginləşdirir. Dövlət Xidmətinin dəstəyi ilə qoruq ərazisində AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun alimləri ilə birgə elmi tədqiqatlara başlanılıb və artıq arxeoloji qazıntıların birinci mərhələsi uğurla yekunlaşıb.

**Qoruq ərazisində qeydiyyata alınmış çoxsaylı kurqanların elmi dövriyyəyə cəlb olunmasının önəmini qeyd edən arxeoloq Bəxtiyar Cəlilov isə aparılan qazıntı işlərindən söz açdı:**

– Bu il tədqiqat planına uyğun olaraq, AMEA-nın Arxelogiya və Antropologiya İnstitutunun Ağstafada Tavatəpə və Keşikçidağ ərazisinə arxeloji ekspedisiyası təşkil olunub. 2 ay çəkən ekspedisiyaya mən rəhbərlik etmişəm. Ekspedisiya zamanı apardığımız elmi tədqiqta işləri 60 gün çəkib. Talatəpədəki arxeoloji işlər artıq üçüncü ildir davam etdirilir. Builki nəticələr unikallığı ilə diqqəti cəlb edir. Burada son tunc ilk dəmir dövrünün başlanğıcına aid dini ritual ibadədgah yeri aşkar olunub. Bu dairəvi tikili o dövür üçün önəmli ictimai binadır. Dairəvi sahəsi 200 kvadratmetrdən artıq olan bu tiklinin diametri 15 metrdir.

Abidənin tədqiqi bu dövr mədəniyyət daşıyıcılarının, xüsusi ilə Xocalı–Gədəbəy mədəniyyəti daşıyıcılarının həyat tərzi, dini və dünyəvi görüşlərinin tədiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Tavatəpədə aparılan arxeoloji qazıntılar Azərbaycan–İtaliya beynəlxalq ekspedisiyasının birgə iştirakı ilə həyata keçirilib. Azərbaycandan layihə rəhbəri mən, İtaliya tərəfdən isə Kataniya Universitetinin professoru Nikola Laneri idi.

Sonrakı tədqiatalar isə Keşişçidağ qoruğu ərazisində iki istiqamətdə kurqanlarda qazıntılar aparılıb. Bu işdə bizə qoruq əməkdaşları da dəstək veriblər. Onlardan birincisi Ağstafa rayonunun Ağgöl kəndindən 600 metr şimal-şərq istiqamətində qeydə alınmış kurqanlardır. Bu maraqlı cəhəti ondan ibarətdir ki, kurqanın üst örtüyü kiçik çay daşlarından kromlex şəklində əhatə olunub. İkinci istiqamət isə Sarısoy kurqanlarıdır. Sarısoy istiqamətində aparılmış arxeoloji qazıntı işləri başa çatdırılıb və maraqlı tapıntılar əldə edilib.

Kurqanlar özündə Xocalı–Gədəbəy mədəniyyətinin izlərini yaşadır və bu mədəniyyəti öyrənmək üçün mühüm əhəmiyyət kəsb edən dəfn adətləri mövcuddur. Ərazidə elmi tədqiqat və arxeoloji qazıntı işləri yenə də davam etdiriləcək.

***Ceyhun ALIŞLI***
***XQ***

**Əhsən Dadaşov – 100**

# "52 yaşlı" tarzənin 100 yaşı



Həyatın çətinlikləri, sərt sərhədləri ilə dolu bir dünyada, insanın özünü tapması və ifadə etməsi bəzən qeyri-adi yollarla olur. Bu yollardan biri də musiqidir. Musiqi, ruhun dilidir, insanı dərin hisslərə, düşüncələrə və xəyallara aparır. Bu mənada, "tar və simfonik orkestr" üçün Hacı Xanməmmədov tərəfindən yazılan konsertin ilk ifaçısı, əfsanəvi tarzən Əhsən Dadaşovun həyatını və sənətini təsvir etmək, bir musiqi parçasının melodiyası kimi, müxtəlif notların harmoniyasını tapmaq deməkdir. İlklərin adamı idi Əhsən Dadaşov. Sovet dövründə qadağa qoyulan ud alətini də 60-cı illərdə ölkəmizə gətirərək, yenidən ona nəfəs vermiş, məşhur "Şur" muğamını ifa etmişdir.

Əhsən Dadaşov musiqi aləminə daxil olduğu gündən etibarən, özünəməxsus üslubu ilə dinləyicilərini heyran edib. Tarzən ənənəvi Azərbaycan musiqisini modern notlarla birləşdirərək, öz yaradıcılığında bir körpü qurub. Onun ustalığı, yalnız musiqi alətini ifa etməsi ilə deyil, həm də hər bir notda gizlənmiş duyğuları dinləyiciyə çatdırma qabiliyyəti ilə bağlıdır.

Bir gün, lent yazılarında sənətkar tarı ilə bir araya gəldikdə, sanki zaman dayanır. Hər bir telin səsi, bir nağılın başlandığını bildirir. Sanki o, mizrabın hər bir zərbəsində dağların, çayların və dənizlərin səsini yaradır. O, tarın səsi ilə ruhunu birləşdirir, onu yalnız bir musiqi aləti kimi deyil, bir dost, bir yoldaş kimi qəbul edir. Bu, onun musiqisinin qeyri-adi ruhunu ifadə edir.

Musiqi bəzən insanın içindəki acıları, sevinci, həyəcanı və xəyalları səsləndirməyin ən gözəl yoludur. Əhsən Dadaşov, tarzən olaraq, bu hissləri öz ifasında birləşdirib. O, musiqinin dili ilə danışır, dinləyiciləri öz aləminə dəvət edirdi. Hər bir konsert, onun üçün bir səfər idi. Bu səfərdə o, dinləyiciləri öz duyğularının dərinliklərinə aparırdı.

Tarzən Əhsən Dadaşov, yalnız bir musiqiçi deyil, həm də ölməz sənətkardır. Onun ifası, dinləyicilər üçün gözəl bir dünyaya açılan pəncərədir. Bu pəncərədən baxdıqda, görünən mənzərə – həyatın gözəllikləri, çətinlikləri və onların öhdəsindən gəlməyi öyrənməkdir. Musiqisinin ritmi, insanların ruhuna bir parıltı bəxş edir. Bu pəncərə vasitəsilə hər birimiz öz içimizdəki melodiyanı kəşf edə bilərik.

Onun melodiyaları, insanları bir araya gətirir, sevgi, dostluq və həmrəylik hisslərini canlandırır. O, musiqisinin hər bir notunda bir hekayə danışır; dinləyicilər bu hekayələrdə özlərini tapır, öz duyğularını yenidən yaşayırlar.

Mikayıl Müşfiq tarı hücumlardan belə qorumuşdu:

**"Oxu, tar, oxu, tar!**
**Səni kim unudar?"**

Osman Sarıvəlli isə yazırdı: "Hər kim yüz il yaşamasa, günah onun özündədir". İlk baxışda sadə bir fikir kimi görünsə də, dərin mənalar daşıyır. Bu ifadə ilə bağlı düşünərkən həyatın qiyməti, zamanın əhəmiyyəti və insana verilən ömür sərmayəsinin necə dəyərləndirilməsi mövzusunda çox sayda fikir beynimdən keçir. Misraları başqa bir aspektdən təhlil etdikdə isə düşünürəm ki, burada sadəcə cismən yaşamaq nəzərdə tutulmur. Axı, elə olsaydı biz bu gün 52 il yaşayıb-yaratmış dahi tarzən Əhsən Dadaşovun 100 illik yubileyini qeyd etməzdik. Cismən 100 il yaşamasa da, ruhən bizimlədir, yaddaşlara həkk olunub, heç vaxt da unudulmayacaq.

Onu ilk dəfə Mirzə Mənsur Mənsurov kəşf etmişdi. Sanki ürəyinə dammışdı ki, bu uşaq nəğməkar olsa, dağ çayı qədər məğrur, coşqun şəlalələrtək gur, tar qədər qəlbə yaxın, şirin bir musiqi bəstələyər. Dahi bəstəkar Üzeyir Hacıbəylinin belə, dinləyəndə əfsunlandığı, ruhunu qidalandıran və ona "əhsən sənə, Əhsən!" deməyinə səbəb olan bir musiqi...

"Onun ifasını dinləyəndə, mənə elə gəldi ki, iki səmimi dost bir-biri ilə dərdləşir. O böyük düha tarı çalmırdı, tarla söhbət edirdi".

Bu, ilk dəfə tarzənin ifasında "Hümayun" muğamını dinləyərkən məni ağuşuna almış fikirlərdir.

Ruhu şad olsun!

***XƏDİCƏ***

**Bir romanın söylətdikləri**

**Sumqayıt Dövlət Universitetinin müəllimi, şərqşünas-yazıçı, AYB üzvü Əli Rzazadənin Vətən müharibəsi şəhidi, leytenant Teymur Abbasovun xatirəsinə həsr etdiyi "Cənab leytenant" memuar-romanı çağdaş qəhrəmanlıq ədəbiyyatımızı zənginləşdirən əsərlərdəndir.**

# "Cənab leytenant" – Vətəni seçən qəhrəman

Müəllif müharibənin ilk günlərində könüllü, özü də yaşı çox olduğu üçün təkidlə cəbhəyə yollanan 40 yaşlı Teymurun Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirakından rəğbətlə bəhs edib. O, şəxsi igidliyinə görə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilən gənclik dostu Teymura vəfa borcunu bir ədib kimi də yerinə yetirib.

Əsərdə şəhidin həyatından, döyüş yolundan və uzun illər düşmən işğalı altında qalan torpaqlarımızın azad olunması uğrunda göstərdiyi qəhrəmanlıqdan bədii vasitələrlə söz açılır. Romanın təqdimatında akademik Nizami Cəfərov, professor Asif Rüstəmli və başqaları əsər, eləcə də müəllifin vətənpərvərlik mövzusunda yaradıcılığı haqqında təəssüratlarını bölüşüblər.

"Cənab leytenant" Əli Rzazadənin sayca 7-ci kitabıdır. Bundan öncə "Sonsuz", "Yağış", "Səmaya qayıdan yazı" romanlarını, "Nurdan zərrələr", "Mənəvi dəyərlər və ətraf mühitin mühafizəsi" və "Onun hekayəsi" adlı əsərlərini oxucu auditoriyasına təqdim edib. Müəllifin ərəb dilində qələmə aldığı "Xocalıya ədalət" adlı əsəri Xocalı həqiqətlərini əks etdirən ilk ərəb dilində nəşr edilmiş kitab olaraq bir neçə ərəb ölkəsində təqdim edilib. Əli müəllim "Cənab leytenant" haqqında qəhrəmanına sevgi ilə söhbət açdı:

– Biz rəhmətlik Teymurla universiteti birgə oxuyub eyni peşə sahibi olmuşuq, ümumilikdə isə 25 illin dostu idik. Çox mehriban, yaxın əlaqələrimiz olub. Mənim vaxtilə "Yağış" romanımın təqdimatında Teymur zarafatla demişdi: Bəs mənim haqqımda nə zaman kitab yazacaqsan?". Mən də eyni zarafatla demişdim ki, narahat olma, sən də daxil, dostlarım haqqında gələcəkdə kitab yazacağam. 2020-ci ildə müharibə başlananda Teymur israrlı xahişilə savaşa qoşuldu.

Onunla son telefon danışığımızda dedim ki, ay qardaş, hər ikimiz ehtiyatda olan zabitik, amma hələlik bizə ehtiyac yoxdur. Bu israrla cəbhəyə tələsməyin niyə? O, isə dedi ki, bu gün xalqım və Vətənim naminə müharibədə olmalıyam. İş elə gətirdi ki, Teymur müharibənin gedişatında şəhadət zirvəsinə ucaldı. Bundan sonra dostuma vaxtilə zarafatla dediyim söz daim beynimdə fırlandı. Sonda belə qərara gəldim ki, Teymur haqqında roman yazım. Onu da deyim ki, Teymurun yalnız müharibədəki son dövrünü yox, həm də tələbəlik, dostluq vaxtlarımızı, birgə keçirdiyimiz xoş günləri də qələmə almışam.

Romanda tələbəlik xatirələrinə dalan müəllif yazır ki, sanki, şəhid olacağını bilirdi. Həmişə deyirdi ki, görərsiz, nə edəcəyəm. Auditoriyada Teymur qəfil arxaya dönərək, partamızın üstündəki dəftərimizə qol çəkir və gülərək deyirdi: vaxt gələcək, bu imza sizə lazım olacaq. Vaxt olacaq, məni axtaracaq, amma tapmayacaqsınız...




Teymurun qardaşı Tural Abbaslının xatirələrindən: "Hər məqamda, – Müharibə başlasa, torpaqlarımızı alardıq. Erməni kimdir ki, bizim torpaqlarda oturur? Bu, bizim millətimizi aşağılayır, – deyirdi. 12 iyuldakı erməni təxribatından sonra evdə demədən gedib könüllü yazılmışdı və həvəslə onu çağırmalarını gözləyirdi. Müharibə başlanandan bir gün sonra isə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi Rayon İdarəsinə zəng etdi, hətta bununla yetinməyib idarəyə getdi və onu aparmadıqları üçün iradını bildirdi. Hələ 2003-cü ildə əsgərlikdə olarkən, Gəncədə xüsusi təyinatlıların hərbi hissəsinə yazılmışdı, xidmətini orada davam etdirdi. Əsgərliyinin sonuncu 3 ayında zabitlik kursunu bitirmişdi. Beləliklə, ordudan leytenant kimi tərxis olundu. Ümumiyyətlə, Teymur hərbiyə çox meyilli idi və Vətən uğrunda vuruşmaq istəyirdi. Qismət gəldi, bu günə düşdü və 29 sentyabr tarixində hərbi xidmətə getdi".

İki həftədən sonra Teymur canını Vətənə qurban verdi. Hərbçi yoldaşları onun tabeliyindəki əsgərləri mərmi yağışı altından çıxartdığını deyirlər. Hadrutda olduqları ərazidə su yox imiş. Öz suyunu onlara içirdib. Döyüş zamanı qoruyucu gödəkcənin açıq hissəsindən güllə yarası alıb, elə ondan da şəhid olub. Romandan da göründüyü kimi, Teymur istədiyi kimi yaşayıb, işləyib, ailə həyatı qurub, istədiyi kimi də bu dünyadan gedib.

Anasının dediklərindən: "Bir dəfə danışanda "Teymur, özünü qoru", – dedim. "Ana, niyə belə deyirsən? Mən 18 yaşlı uşaqları irəli verim, özüm arxada durum? Heç vaxt belə edə bilmərəm. Mən qabaqda gedib "arxamca gəlin!" deyirəm", – dedi".

Döyüş dostları isə danışır ki, oktyabrın 12-nə keçən gecə mühasirədən çıxandan sonra oturub dincəlirmişlər. Teymur köməkçisi Ülviyə "Meşədən səs gəlir, gedək baxaq, ola bilər ki, bizi mühasirəyə alsınlar", – deyib. Ülvi yorğun olduğunu, bir az dincəlmək istədiyini deyib və Teymur özü tək yollanıb. Bir qədər sonra dostları 3 güllə səsi eşidiblər. Teymur gələndən sonra "Uşaqlar, deyəsən məni vurdular" deyərək gülə-gülə yerə uzanıb və su istəyib.

Vaxtilə yaşadığı "Mirzə Fətəli Axundzadə, 2" ünvanındakı evin divarlarını şəhid leytenantın hərbi paltarda portretləri bəzəyir. Fotolardan enlikürək, nur simalı, gülərüz gənc zabit boylanır. Elə "Cənab leytnant" romanının səhifələrindən də belə bir igid boy göstərir.

Şəhidlərdən bizə qalan əmanətin bir Vətən, bir də xatirələr olduğunu qeyd edən yazıçı "Cənab leytenant"ı yazmaq səbəbini səmimiyyətlə açıqlayır: "Sadəcə, Teymuru anlatmaq, ondan danışmaq istəyirəm, vəssalam..." Əli Rzazadə Teymuru hamımıza yazıçı ustalığı ilə tanıda bilib. Xəyali obrazı işləmək asandır, onu oxucuya istəsən, o cür də təqdim edə bilərsən. Həqiqi dost itkisinin ağrı-acısına bükülüb, özünün ədəbi ustalığına sığınaraq qəhrəmanı olduğu kimi təqdim etmək isə çətindir. İnamla deyə bilərik ki, yazıçı buna nail olub.

Kitabın redaktoru, həmkarımız Şəfa Vəli yazır ki, Əli Rzazadə romanın əvvəlində Teymur Abbasovun timsalında bütün şəhidlərimizə olan ehtiramını dilə gətirir: "Onlar fövqəlinsanlardır. Adları gəlincə bizi ehtiramla ayağa qaldıran, damarımızda kədərli bir qüruru coşduran, xatirələrinə sarılaraq qəmimizə təsəlli tapmağımıza səbəb olan ŞƏHİDLƏR! Ağrı da xatirədir, həm də ən qudsalından!"

İki gəncin köhnə kitablar satılan yerdə rastlaşması, bir-birinin fikir dənizində qəvvasa çevrilməsi də tale işidir. O tale ki, lap əzəldən Teymurun şəhid olacağı, Əli Rzazadənin də şəhid dostu haqqında roman yazacağı həkk olunmuşdu alnına... Və şəhadət şərəfinin nəsib olduğu insana kainatın bunu müxtəlif işarətlərlə anlatmaq forması var romanda. Məsələn, bir qadının Teymura etdiyi alqış: "Allah səni şərəfləndirsin, oğlum".

Kitabdan oxuyuruq ki, Teymur ömürgün yoldaşına, Cəfər Cabbarlının təbirincə, Sonasına mesajında yazır :"Bağışla, mən Vətəni seçdim". Oxuduqca bir təbəssüm qonur dodaqlarımızın ucuna, sonra düşmən gülləsinə qurban gedən dağ vüqarlı bir oğulun göynəyi baş qaldırır sinəmizdə, lap sonda da Sona Abbasovanın gülümsər çöhrəsi gəlir gözümüzün önünə... Təbəssümümüz göynəyimizə, göynəyimiz təbəssümümüzə təsəlli verir: "Sona xanım Teymuru ilk gördüyü, könlünü verdiyi gün bağışlamışdı Vətənə".

Əli Rzazadənin bütün əsərlərində – janrından asılı olmayaraq, – bax, belə bir mənəvi arınma var. "Cənab leytenant" isə bu pak aləmin növbəti qəhrəmanlıq dastanıdır.

***Əli NƏCƏFXANLI***
***XQ***

Epidemioloji durum

# Meymunçiçəyi virusu: Bizə gəlib çatacaqmı?!




(əvvəli 1-ci səhifədə)

İlk vaxtlarda infeksiya 15 ölkədə aşkarlanmışdı. Hazırda yayılmanın 90 faizi Afrika qitəsində, xüsusilə də Konqoda və ətraf ölkələrdə müşahidə edilib.

Ümumdünya Səhiyyə Təşkilatının xəstəliyə daha həssas münasibətinin səbəbi yayılmanın ötən ilə nisbətən bu il daha sürətli olmasıdır. Təşkilat bütün ölkələri lazım gələrsə, birgə tədbirlər görməyə çağırıb.

Meymunçiçəyi nadir bir virusdur. Suçiçəyi xəstəliyinə bənzəyir. Virusun ilk əlamətləri qızdırma, başağrısı, şişkinlik, bel, əzələ ağrısı və zəiflikdir.

**Təyyar Eyvazov xəstəliyin əlamətlərindən söz açaraq dedi:**

– Meymunçiçəyi çiçək virusu ilə eyni ailədəndir, ona görə də xəstəliyin gedişatı da çiçək xəstəliyi ilə çox oxşardır. Xəstəlik qızdırma ilə başlayır, baş və əzələ ağrıları ilə davam edir. Qızdırmadan bir neçə gün sonra səpgilər əmələ gələrək bədənə yayılır. Burada ən qorxulu xəstəliyin pnevmoniya əmələ gətirməsidir. Həmin halda letallıq daha yüksək olur.

Çox qaşınan səpgilər qabığa çevrilir və bir müddət sonra azalır, yaralar izlər buraxa bilər. Bu virus yoluxucudur, bədənə dəri sıyrıqları, tənəffüs yolları, göz, burun və ya ağızdan daxil olur. Meymun, siçovul və dələ kimi yoluxmuş heyvanlar vasitəsilə və yataq dəsti, paltar kimi əşyalarla da ötürülə bilər. Səpgilərinə, quruluşuna görə, onu çiçək xəstəliyindən ayırmaq qeyri-mümkündür. Çiçək xəstəliyinə çox bənzəyir, lakin ondan fərqi limfa düyünlərində böyümə əmələ gətirməsi onun xarakterik xüsusiyyətlərindən biridir.

**Hazırda xəstəliyin epidemiyaya çevrilmək riskinin az olduğunu qeyd edən infeksionist daha sonra söylədi:**

– Çiçəyə qarşı olan peyvənd meymunçiçəyi virusuna qarşı da 85 faiz halda qoruyucudur. Bundan başqa, Amerikada qeydiyyatdan keçmiş daha bir vaksin də var ki, həmin vaksin həm çiçəyə, həm də meymunçiçəyi virusuna qarşı yüksək qoruyuculuğa malikdir. Yay mövsümündə insanlar, istər turist kimi, istərsə də yaşayış məkanını dəyişərək miqrasiya edirlər. Nəzərə alsaq ki, yoluxma məkanı Afrika arealıdır, o zaman oradan gələnlər yoxlamadan keçəcəklər. İnfeksiya yeni olmadığından həkimlərimiz bu barədə məlumatlıdırlar. Azərbaycanda indiyədək bu infeksiya aşkarlanmayıb və virusun profilaktikası üçün bütün tədbirlər görülür.

Alimin dediklərinə əlavə edək ki, bu virus ilk dəfə meymunda aşkar edilib. 1970-ci ildən bəri on Afrika ölkəsində epidemiya şəklində yayılıb. 2003-cü ildə Amerika Birləşmiş Ştatlarında insanlara çöl itlərindən keçməklə qeydə alınıb. 2017-ci ildə Nigeriyada meymunçiçəyinə yoluxan 172 xəstənin 75 faizini 21-40 yaş arası kişilər təşkil edib. 2021-ci ildə isə Konqoda bu xəstəlikdən 24 nəfər dünyasını dəyişib. Mütəxəssislərin dediyinə görə, meymunçiçəyinin müalicəsi yoxdur, lakin yoluxmanın qarşısını almaq mümkündür. Amma Afrikada meymunçiçəyi virusu yenidən alovlandığına görə, ölkədə ötən həftə fövqəladə vəziyyət elan edilib.

Meymunçiçəyi virusu kimi tanınan "M poks" virusu yayılmağa davam edir. "Reuters" agentliyi ötən həftə yaydığı məqalədə bildirir ki, Afrika Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi bütün qitədə meymunçiçəyi variantının həyəcanverici səviyyədə olduğunu açıqlayıb. Eyni zamanda, meymunçiçəyinə görə gələn həftə ölkədə fövqəladə vəziyyət elan ediləcəyi barədə anons verib.

Konqoda bu il 13 mindən çox "M poks"a yoluxma, o cümlədən 503 ölüm hadisəsi baş verib. Meymunçiçəyinin ilk dəfə aşkarlandığı ölkələrə biri də əlavə olunub. Uqandanın 2 şəhərində 3 nəfərdə ilk dəfə bu virus aşkarlanıb.

Konqo Respublikasının səhiyyə nazirinin məlumatına görə, yoluxanlardan heç kim vəfat etməyib. Amma sayın artacağı gözlənilir. Ümumilikdə, Afrikada 11 min meymunçiçəyi xəstəsi olub, onlardan 400 nəfəri ölüb. Afrika Birliyi təcili olaraq 10 milyon dollar ayırıb ki, qitədə epidemiyanın qarşısı alınsın.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Azərbaycanlı rəssam Türkiyədə 2 beynəlxalq mükafat qazandı

**Türkiyənin Çanaqqala Onsəkkiz Mart Universitetinin (ÇOMÜ) müəllimi Vahid Novruzov iki beynəlxalq müsabiqənin iştirakçısı və qalibi olub. Bu barədə qəzetimizə vaxtilə Türkiyənin Çanaqqala və Egey universitetlərinin professoru olmuş Aydın İbrahimov məlumat verib.**



Aydın müəllim qeyd edib ki, hər iki müsabiqənin birinci mükafatını alan Vahid müəllim universitetin İncəsənət (Gözəl Sənətlər) fakültəsinin müəllimidir. Serbiyada keçirilən müsabiqədə münsiflər heyəti Vahid Novruzovun rəsmini xüsusi qaydada dəyərləndirib və onun çəkdiyi rəsm əsəri dünyanın bir çox ölkələrindən olan 70 rəssamın əsərləri arasından seçilib və birinci mükafata layiq görülüb.

Vahid Novruzov, həmçinin Rusiyanın Sankt-Peterburq şəhərindəki Ştiqlits Akademiyasının təşkil etdiyi Beynəlxalq sərginin də mükafatçısı olub. Onun beynəlxalq sərgidə nümayiş olunan əsəri rəsm kateqoriyasında birinci mükafata layiq görülüb.

Qeyd edək ki, Vahid Novruzov 1980–1986-cı illərdə Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbində təhsil alıb. 1993-cü ildə Azərbaycan Rəssamlıq Akademiyasını bitirib. 1995–2000-ci illərdə məzun olduğu Dövlət Rəssamlıq Məktəbində müəllim vəzifəsində çalışıb. Onun rəsmləri Azərbaycan, Türkiyə, Almaniya, Avstriya, Bolqarıstan, Rusiya və Macarıstan kimi ölkələrin bir sıra muzeylərində nümayiş olunmuş və həmişə də yüksək qiymətləndirilmişdir. Vahid Novruzov 2001-ci ildən Çanaqqalada yaşayır, Onsəkkiz Mart Universitetinin İncəsənət fakültəsinin rəssamlıq kafedrasının müəllimidir.

*Namiq QƏDİMOĞLU*
*XQ*

## "AZƏRELEKTROTERM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN 2023-cü il dekabrın 31-nə balans hesabatı

manatla

| Aktivlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Əsas vəsaitlər | 868,492.00 | 942,205.88 |
| Qeyri maddi aktivlər | 6,561.21 | 7,290.23 |
| **Cəmi uzunmüddətli aktivlər** | **875,053.21** | **949,496.11** |
| Ehtiyatlar | 1,305,601.85 | 1,295,490.24 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5,951.83 | 4,905.03 |
| Digər aktivlər | 7,650,427.29 | 7,697,692.26 |
| Qısamüddətli debitor borcları | 2,179,320.28 | 1,899,561.16 |
| **Cəmi qısamüddətli aktivlər** | **11,141,301.25** | **10,897,648.69** |
| **Cəmi aktivlər** | **12,016,354.46** | **11,847,144.80** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 1,771,462.00 | 1,771,462.00 |
| Hesabat dövrünün xalis mənfəəti | 187,144.21 | 89,676.62 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 7,812,683.57 | 7,755,419.70 |
| **CƏMİ KAPİTAL** | **9,771,289.78** | **9,616,558.32** |
| Qısamüddətli kreditor borclar | 778,943.94 | 763,638.80 |
| Digər öhdəliklər | 1,466,120.74 | 1,466,947.67 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **2,245,064.68** | **2,230,586.47** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **12,016,354.46** | **11,847,144.79** |

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT**

| **Gəlirlər** | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 439,161.29 | 264,0000.00 |
| Əməliyyat xərcləri | 19,793.73 | 18,696.66 |
| **Ümumi Mənfəət (zərər)** | **419,367.56** | **245,303.34** |
| Ümumi idarəetmə xərcləri | 102,161.12 | 33,839.21 |
| Amortizasiya | 76,111.21 | 84,405.36 |
| Sair əməliyyat xərcləri | 7,164.97 | 14,963.00 |
| **Cəmi sair əməliyyat xərcləri** | **185,437.30** | **133,207.57** |
| **Əsas fəaliyyət üzrə mənfəət (zərər)** | **233,930.26** | **112,095.77** |
| Mənfəət vergisi | 46,786.05 | 22,419.15 |
| **Vergi tutulduqdan sonra mənfəət** | **187,144.21** | **89,676.62** |
| **Hesabat dövründə xalis Mənfəət (zərər)** | **187,144.21** | **89,676.62** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
|---|---|
| Hesabat dövründə xalis mənfəət (zərər) | **187,144.21** |
| Amortizasiya xərcləri | 76,111.21 |
| Digər aktivlərdə artma və ya azalma | -47,264.97 |
| Ehtiyatlarda artma və ya azalma | 10,111.61 |
| Qısamüddətli debitor borcların artması və ya azalması | 279,759.12 |
| Qısamüddətli kreditor borcların artması və ya azalması | 15,305.14 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 27,136.90 |
| Əsas vəsaitlərin alınması | 1,668.32 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma, azalma** | 1,046.00 |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | 4,905.03 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 5,951.83 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Əlavə kapital | Kapitalın cəmi |
|---|---|---|---|---|
| **2023-cü il yanvarın 1-nə qalıq** | 1,771,462.00 | 7,755,419.70 | 89,676.62 | **9,616,558.32** |
| Xalis mənfəətin artması | 0.00 | 0.00 | 97,467.59 | **97,467.59** |
| Sair düzəlişlər | 0.00 | 57,263.87 | 0.00 | **57,263.87** |
| ***2023-cü il* dekabrın 31-nə qalıq** | **1,771,462.00** | **7,812,683.57** | **187,144.21** | **9,771,289.78** |

**SƏRBƏST AUDİTORUN RƏYİ**

Mən, SƏRBƏST AUDİTOR ŞƏRİFOV ƏRŞAD VÜSAL oğlu ilə (VÖEN:1201062092) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 15 yanvar 2021-ci il tarixli SA/460 saylı qeydiyyatlı icazəyə və "AZƏRELEKTROTERM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ arasında (VÖEN:1500050411) (bundan sonra "cəmiyyət" adlanacaq) bağlanmış 2 aprel 2024-cü il tarixli 76 nömrəli müqaviləyə əsasən 2023-cü il dekabrın 31-də bitən il üzrə "cəmiyyət"ın balans hesabatı, mənfəət və zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti hesabatının, kapitalda dəyişikliklər haqqında hesabatın "cəmiyyət" tərəfindən təqdim edilmiş sənədlər əsasında auditini apardım.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında hazırlanmasına və ədalətli təqdimatına görə cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə aşağıdakılar daxildir:

– maliyyə hesabatlarının saxtalaşdırılmadan və hər hansı mühüm təhriflərə yol vermədən hazırlanması və ədalətli təqdimatına uyğun daxili nəzarətin planlaşdırılması, tətbiqi və saxlanılması;
– müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi;
– şəraitə müvafiq mühasibat qiymətləndirmələrinin aparılması.

**Auditorun məsuliyyəti**

Mənim məsuliyyətim apardığım auditin nəticəsinə əsaslanaraq bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən, auditi audit standartlarına uyğun olaraq həyata keçirdim. Həmin standartlar tələb edir ki, mən etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdırıb həyata keçirim ki, maliyyə hesabatlarında əks etdirilən məlumatlarda əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olum.

Audit zamanı maliyyə hesabatlarında əks etdirilən məbləğlər və açıqlamalar üzrə sübutların təsdiq edilməsi üçün prosedurlar aparılır. Prosedurlar, auditorun qərarından, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin risk qiymətləndirmələrini apararkən, auditorun məqsədi təşkilatın daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy vermək deyil, şəraitə müvafiq audit prosedurlarının planlaşdırılması üçün təşkilat tərəfindən maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatının daxili nəzarət sisteminə uyğunluğunu nəzərdən keçirməkdir.

Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin və aparılmış mühasibat hesablamalarının müvafiqliyinin, eləcə də ümumi maliyyə hesabatlarının təqdimatının qiymətləndirilməsi daxildir.

Məncə, apardığım audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışam.

**Rəy**

Mənim rəyimə görə, bu icmal maliyyə hesabatları 2023-cü il dekabrın 31-nə "AZƏRELEKTROTERM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN (VÖEN:1500050411) maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun əks etdirir.

**SƏRBƏST AUDİTOR – Şərifov Ərşad Vüsal oğlu.**
**15 aprel 2024-cü il.**

Beynəlxalq həyat

# Kursk yürüşü hara aparır?

**Avqustun 6-da gecə saat 2-dən başlayaraq, Ukrayna Ordusunun Kursk istiqamətində qəfil hücumu və bir neçə gün ərzində 30-35 kilometrədək irəliləməsi bütün dünyada şok effekti yaradıb və qlobal medianın gündəmindən düşmür. Bu mövzu hətta Qəzzada HƏMAS yaraqlıları ilə İsrail Ordusu arasında ağır zorakılıqlarla müşayiət olunan silahlı qarşıdurmanı da kölgədə qoyub.**



Hərbi ekspertlər hesab edirlər ki, Kursk əməliyyatı Ukraynanın müharibədə assimmetrik döyüş taktikasına keçməsinə dəlalət edir. Görünən budur ki, Kiyev hərbi sursat və əsgəri qüvvə baxımından özündən qat-qat güclü olan rəqibini gözlənilməz əks-hücumlarla yaxalamağa cəhd edib və əks tərəfin nüfuzuna ağır zərbə vurmağa çalışır.

İndi Ukrayna Ordusunun əsas məqsədi ələ keçirdiyi ərazilərdə möhkəmlənmək, növbəti həmlələr üçün zəmin yaratmaqdır. Hər halda, yaxın günlər ərzində bunun mümkün olub-olmayacağının şahidi olacağıq. Fakt budur ki, hazırda Ukraynanın 12 minlik yüksək hazırlıq keçmiş qoşunu Rusiya ərazisində ağır döyüşlər aparır.

Qeyd edək ki, son bir il ərzində Rusiya-Ukrayna savaşının min kilometrlərlə uzanan cəbhəsi boyu tərəflər arasında ağır mövqe döyüşləri gedir. Son həftələr ərzində Xarkov istiqamətində Ukrayna hərbçilərinin vəziyyəti çətinləşib. Böyük qüvvələrlə hücum edən Rusiya rəqibini sıxışdırmağa çalışır və bir çox hallarda buna nail olur.

Bir məqamda belə bir məsələyə də diqqət yetirmək lazımdır. Belə ki, bu il noyabrın 5-də ABŞ-də keçiriləcək prezident seçkilərində milyarder Donald Trampın dövlət başçısı seçilmək şansı var. "Rusiyanın dostu" sayılan Tramp seçkilərdə qələbə qazanacağı təqdirdə, Ukraynada münaqişəyə cəlb olunan tərəfləri döyüşləri dayandırmağa və sülh danışıqlarına başlamağa vadar edəcəyini vəd edib.

Ukrayna Trampın qələbəsini istəmir və belə bir perspektivdən çox buna görə narahatdır. Axı, bu ölkənin ərazisinin 20 faizə qədəri Rusiya tərəfindən nəzarətə götürülüb. Məlumdur ki, gələcəkdə mümkün sülh danışıqları masası arxasında diplomatların "arqumentləri" cəbhədəki real vəziyyətdən asılı olaraq ya "güclü", ya da "zəif" olur. Məhz buna görə də, tərəflər bütün qüvvələrini səfərbər edərək, cəbhədə üstünlüyə malik olamağa can atırlar.

Dünən Ukrayna Prezidenti Volodimir Zelenski xalqa ənənəvi müraciət edərək bildirib ki, ölkəsinin Silahlı Qüvvələri Rusiya Federasiyasının Kursk vilayəti ərazisində uğurla irəliləməkdə davam edirlər. Onun sözlərinə görə, Ukrayna Kursk əməliyyatı zamanı öz strateji məqsədinə çataraq yaxşı nəticələrə nail olur.

Daha əvvəl Ukraynanın dövlət başçısı Kursk vilayətinin 74 yaşayış məntəqəsinin ələ keçirildiyini bildirmişdi. Lakin bu rəqəmin həqiqəti tam əks etdirdiyini təsdiq etmək çətindir. Rusiya hələlik rəsmən 28 yaşayış məntəqəsinin rəqibin nəzarətində olduğunu təsdiqləyib. Xatırladaq ki, hər bir müharibədə rəqibi çaşdırmaq üçün yalan, şişirdilmiş məlumatlar yaymaq adi haldır.

Bu günlərdə "bostanına daş atılan" Rusiya Silahlı Qüvvələri, təbii ki, "bekar" dayanmır. Ukraynanın hərbi kəşfiyyatı onların Sumı vilayəti istiqamətində genişmiqyaslı hücuma keçə biləcəyi barədə məlumatlar əldə edib. Təsadüfi deyil ki, Ukraynanın daxili işlər naziri İqor Klimenko qeyd edib ki, Sumı vilayətinin 183 yaşayış məntəqəsinin sakinləri təcili surətdə təxliyə olunurlar. Artıq 20 mindən çox şəxs evakuasiya edilib ki, onlardan 2,5 mini uşaqlardır.

Pentaqon Ukraynada baş verənləri nəzarətdə saxlayır. Dünən Ukraynanın müdafiə naziri Rüstəm Umerov ABŞ-dan olan həmkarı Lloyd Ostini Ukrayna–Rusiya cəbhəsindəki vəziyyətlə bağlı bir daha məlumatlandırıb. R.Umerov bu zaman həm ABŞ hökumətinə, həm də Amerika xalqına Rusiyanın hücumu başladığı zamandan ölkəsinə göstərilən dəstəyə görə təşəkkür edib. Eyni zamanda bildirib ki, Ukrayna xalqının öz ərazi bütövlüyünü qorumaaq üçün mücadiləsi davam edir.

Bu günlərdə diqqətçəkən başqa bir məqam isə budur ki, Şimali Avropanın bir çox dövlətləri, eləcə də Danimarka Ukraynaya hərbi dəstəyi artırmağa başlayıb. Məlum olub ki, Danimarka Müdafiə Nazirliyi Ukrayna üçün "Bohdana" haubitsalarının istehsalını maliyyələşdirəcəyini açıqlayıb.

Rusiya Ukraynanı Kursk yürüşünə görə nəyin bahasına olursa-olsun cəzalandırmağa çalışacaq. Ərazidə tezliklə ağır döyüşlərin baş verəcəyi gözlənilir. Rusiya–Ukrayna müharibəsinin taleyinin məhz bu labüd qarşıdurmadan asılı olacağı çoxlarında şübhə doğurmur. Bir başqaları isə ümid edirlər ki, Kursk yürüşü sülhə aparan yol ola bilər! Hər halda əlahəzrət Zaman müharibə dumanlarında gizlənən həqiqətlərə aydınlıq gətirəcək.

*Məsaim ABDULLAYEV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 174 (30578) 16 avqust 2024-cü il, cümə

# Opera və balet səhnəsinə yeni həyat verilir

**113 yaşlı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında əsaslı təmir və bərpaya 2022-ci ildə start verilsə də, işlər hələ tamamlanmayıb. Milli ornamentli, nəfis pannolu hasar teatrı ətrafdan təcrid edir. İstər-istəməz təbii sual yaranır: Görəsən, yeni mövsümə qədər sənət ocağı öz qapılarını teatrsevərlərin üzünə aça biləcəkmi?**



Təmir işləri barədə açıqlama verən teatrın direktoru, Xalq artisti Yusif Eyvazov deyir ki, burada müasir tamaşalar oynamaqdan ötrü səhnə əsaslı şəkildə təmir olunmalıdır: "Hazırda xaricdən dəvət olunmuş mütəxəssislər, bərpaçılar iş başındadırlar. Teatrın akustika sistemi, orkestrin yerləşdiyi hissə də yenidən təmir olunmalıdır ki, müasir standartlara cavab versin. Əslində, təmirin qısa müddətdə, lap elə yeni mövsümə qədər yekunlaşmasını biz də çox istəyirik. Amma indi gərək teatrımızı elə bərpa edək ki, bundan sonra uzun müddət rahat fəaliyyət göstərsin".



Xalq artisti təmir işlərinin davam etməsinə baxmayaraq, mövsüm boyu teatrın fəaliyyətində fasilə olmadığını da vurğuladı: "Teatr mövsümü artıq başa çatıb. Son tamaşa iyunun 4-də oynanılıb. Tamaşa zalı təmir işləri üçün inşaatçılara təhvil verilib". Direktor əlavə etdi ki, binanın fasadı artıq yenidən qurulub və damda iki yeni günbəz quraşdırılıb.

Direktor onu da bildirdi ki, adətən, yeni mövsüm sentyabrın 18-də açılır. O vaxta qədər teatrın daxilində təmir və bərpa işləri yekunlaşmasa, yəqin ki, bizə başqa yerdə müvəqqəti tamaşa zalı ayıracaqlar.

Məsələ ilə bağlı Mədəniyyət Nazirliyinin də fikrini öyrəndik. Nazirliyin mətbuat xidmətindən bildirdilər ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında əsaslı təmir və bərpa işləri davam etdirilir: "Xarici mütəxəssislərin də cəlb olunduğu təmir prosesi binada akustika və səs sistemi, orkestrin yerləşdiyi hissə, ümumilikdə, interyer və eksteryerin əvvəlki memarlıq üslubu qorunmaqla həyata keçirilir. Binada müasir standartlara cavab verən maddi-texniki baza formalaşdırılacaq. Təmirdən sonra dünyanın ən məşhur opera və balet incilərinin burada yüksək səviyyədə tamaşaya qoyulmasına nail olunacaq. Binanın təmirində tətbiq olunan müasir yanaşmalar səhnə əsərlərinin keyfiyyətinə də öz təsirini göstərəcək".

Nazirlikdən onu da bildiriblər ki, teatrın binasında aparılan təmir işləri ilə əlaqədar opera tamaşaları Bakı Musiqi Akademiyasının opera studiyasının, eləcə də balet tamaşaları isə Heydər Əliyev Sarayının səhnəsində nümayiş etdiriləcək.

P.S. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası XX əsrin əvvəllərində inşa edilib. 1910-cu ildə Bakı milyonçuları Mayılov qardaşlarının təşəbbüsü ilə onun tikintisinə başlanılıb. Memar Nikolay Bayevin qotik üslubda layihələşdirdiyi teatr binasının inşası 1910–1911-ci illərdə – cəmi 10 aya yekunlaşıb. 1928-ci ildə teatra böyük mütəfəkkir, dramaturq Mirzə Fətəli Axundovun adı verilib. Sənət məbədi 1959-cu ildən etibarən Akademik Opera və Balet Teatrı adlanır. Burada son təmir işləri 1987–1988-ci illərdə aparılıb.

***Ramilə QURBANLI***
***XQ***

# "Zirə" tarixində ilk dəfə pley-offda

**Dünən "Zirə" UEFA Konfrans Liqasında növbəti oyununu keçirib. Azərbaycan təmsilçisi III təsnifat mərhələsinin cavab matçında Bakıda Xorvatiyanın "Osiyek" klubu ilə üz-üzə gəlib.**



"Liv Bona Dea Arena"dakı matçın əsas vaxtında qalib müəyyənləşməyib – 2:2.

Oyunun 37-ci dəqiqəsində xorvatlardan Vedran Yuqoviç fərqlənib. 54-cü dəqiqədə penaltini dəqiq yerinə yetirən Qismət Alıyev tarazlığı bərpa edib. 81-ci dəqiqədə Anton Matkoviç xorvatları yenidən irəli çıxarıb – 2:1. Görüşün 90-cı dəqiqəsində isə Davit Volkov adını tabloya yazdırıb.

Səfərdəki ilk görüşdə 1:1 hesablı heç-heçə qeydə alındığı üçün əlavə vaxta ehtiyac duyulub. 30 dəqiqədə qapılara qol vurulmadığından qalib penaltilər seriyasında müəyyənləşib. On bir metrlik cərimə zərbələrini daha dəqiq yerinə yetirən (2:1) "Zirə" tarixində ilk dəfə pley-off mərhələsinə yüksəlib.

***XQ***

# "Qarabağ" "Ludoqorets"i möhkəm silkələyib

**Bolqarıstanın "Ludoqorets" klubu futbol üzrə Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində "Qarabağ"a böyük hesabla məğlub oldu. 2:7 hesablı məğlubiyyət isə klub rəhbərliyində ruh düşkünlüyü yaratdı. Onlar çıxış yolunu komandanın baş məşqçisi Georgi Dermenciyevi istefaya göndərməkdə tapdılar. Rəhbərlik bu qərarı oyundan cəmi bir neçə saat sonra verdi.**



Qeyd edək ki, Dermenciyev daha əvvəl bir neçə dəfə "Ludoqorets"də işləyib. Sonuncu dəfə o, 2023-cü ildə kluba qayıtmışdı. Dermenciyevi müvəqqəti olaraq "Ludoqorets"in əvəzedici komandasının məşqçisi Zaxari Sirakov əvəz edir.

# "Real" superkuboku 6-cı dəfə qazandı

**İspaniyanın "Real" klubu UEFA Superkuboku uğrunda matçda İtaliyanın "Atalanta" klubunu 2:0 hesabı ilə məğlub edib. Qarşılaşma Varşavanın (Polşa) "Narodovı" stadionunda keçirilib. Komandalar ilk hissədə qol vura bilməyiblər. Yalnız 59-cu dəqiqədə kral klubu Valverdenin dəqiq zərbəsilə önə keçib. 68-ci dəqiqədə isə "Real"la ilk rəsmi matçına çıxan Mbappe debüt qolu ilə komandasına mükafatı qazandırıb - 2:0.**



Karlo Ançelotti Mbappenin oyununa münasibət bildirib: "Mbappe çox yaxşı çıxış etdi. Kilian komandamıza yaxşı uyğunlaşdı. UEFA Superkubokunda o, Vinisius və Bellinqhemlə çox yaxşı münasibət qurdu. Aydın məsələdir ki, oyunçularımız bir çox keyfiyyətlərə malikdirlər, lakin onlar birlikdə oynamalıdırlar, biz bunu bacardıq". Beləliklə, ispan klubu tarixində altıncı dəfə – 2002, 2014, 2016, 2017, 2022 və 2024-cü illərdə UEFA Superkubokunu qazanıb və yeni rekorda imza atıb. Madrid klubu kuboku 5 dəfə qazanan İspaniyanın "Barselona" və İtaliyanın "Milan" klublarını qabaqlayıb.

Bu qələbə baş məşqçi Karlo Ançelottinin də rekorda imza atmasına imkan verib. O, 2003 və 2007-ci illərdə "Milan", 2014, 2022 və 2024-cü illərdə isə "Real"la UEFA Superkubokunun qalibi olub. Ançelotti həm də bir oyunçu kimi UEFA Superkubokunu qazanıb: 1990-cı ildə o, "Milanın" "Sampdoriya" üzərində 3:1 hesablı qələbəsində iştirak edib. Beləliklə, ümumilikdə, 6 dəfə bu kuboka sahib çıxıb.

***P.ƏFƏNDİ***
***XQ***

# Yağ ey yağış, ruhumuzu paklandır!

*(Yaşantı)*



**Yaz yağışlarından sonra ilk dəfədir ki, novalçalar aşıb-daşır, yağış suyu günəşin yandırıb-yaxdığı, qovurduğu hər yanı yuyub-təmizləyir. Nar, heyva ağacları leysanda yuyunduqca daha da gözəlləşirlər. Qoca məcnun söyüdlər suya həsrətlilər kimi qol-budaqlarını asta-asta yelləyir, sanki O gözəgörünməzə dua edirlər. Quşlar ağacların koğuşlarında, evlərin damında qurduqları yuvalarda təbiətin bu çağını diqqət və narahatlıqla seyr edirlər.**

Axı onlar bu gün yem dalınca uça bilməyəcəklər, ətcə balalar isə yem gözləyir. Sosializm yarışının bayraqdarları, yorulmaq bilməyən qarışqalar, həyatları boyu yalnız eyni nəğməni oxuyan cırcıramalar da yəqin ki, bu gün işə çıxmayacaqlar. Həyətimdəki boz dovşan da haradasa çəkilib yağışı seyr edir. Bəlkə də, qulaqlarını oyaq saxlayaraq yuxulayıb. Çünki bu anlar onun üçün ən təhlükəsiz məqamdı.

Yağış evimin damını döyəclədikcə, elə bil yeni melodiya bəstələyir və məni axşamdan yarımçıq yuxumu yenidən görmək üçün yatmağa sövq edir. Bu ilin yazında qapıya əkdiyim çiçəklər, həmişəyaşıl kollar bəlkə də, ilk dəfədir ki, doyunca su içirlər...Mənsə, eyvanda oturub çoxdan gözlədiyim bu yay yağışına baxdıqca qəlbən rahatlanıram. Yağış yağdıqca dünyaya bir həzinlik yayılır. Ağacların ilk sarı yarpaqları budaqlara "əlvida" deyib, torpağa sərilir. Demək, yarpaq tökümü başlanır... Yadıma yaxınlar, uzaqlar, tənhalar, təklər, qərib ellərdə doğma yurd üçün ürəyi göynəyənlər düşür...

Bu fikirlər, duyğular xəyalımı çəkib heç vaxt görmədiyim o yerlərə aparır...

Yağış yenə öz dəmindədi, sanki göy üzünə tül çəkilib. Ürəyimdən köhnə iş yoldaşım, dostum, illərlə Füzuli torpağının həsrətini çəkən, "kənd" deyəndə gözləri yaşaran Loğmanın bu misraları keçir:

*Bu yağış yağanda yol qırağında*
*Bir qara daş kimi, bir ağac kimi,*
*İslanmağım gəlir, qalmağım gəlir.*
*Bütün günahları, bütün səhvləri,*
*Nədənsə boynuma almağım gəlir...*

Bəli, bu saatlarda, bu dəmlərdə dünya təkcə hisdən-pasdan, tozdan təmizlənmir, elə ürəklər də qara-quradan, kin-küdurətdən, ağrı-acıdan qurtulur, arınır. Nə gözəl!

Yağ, ey yağış, ruhumuzu ovundur, dünyamızı təmizlə!

***Səməd MƏLİKZADƏ***

# Süni intellekt tennis də oynayır

**"Google" şirkəti həvəskar səviyyəsində stolüstü tennis oynaya bilən robot yaradıb. Şirkətdən bildirilib ki, "DeepMind Robotics" komandası tarixdə ilk dəfə robota insan səviyyəsində tennis oynamağı öyrədib. Təlim hər bir konkret vəziyyətdə müvafiq zərbəni seçən yüksək səviyyəli alqoritmlə birləşdirilib. Hətta onunla həvəskar tennisçilər arasında yarış da təşkil edilib.**



Yarışın nəticələri maraqlı olub. Tennis-robot başlanğıc səviyyəsində olan həvəskar tennisçiləri məğlub edib. Orta səviyyəli həvəskar tennisçilərin 55 faizi də onunla bacarmayıb. Lakin peşəkar idmançılarla qarşılaşma robot üçün çətin olub. Ümumilikdə, 29 qarşılaşma keçirilib. Onların da 45 faizi robotun qələbəsi ilə yekunlaşıb.

Məlum olub ki, robot ən çox sürətli zərbələri yerinə yetirərkən çətinlik çəkib. Hazırda alimlər sistemin təkmilləşdirilməsi üzərində işləyirlər. Çalışırlar ki, robotun oyunu rəqib üçün daha gözlənilməz olsun. Bundan əlavə, robot rəqibin strategiyasını öyrənmək üçün daxili qabiliyyətə malik olacaq.

Bu il daha bir yeniliklə yadda qalacaq. "OpenAI" şirkəti süni intellekt sahəsində inqilab edəcəyini vəd edib. Bu məqsədlə "ChatGPT-5"i işə salmaq niyyətindədir. Söhbət süni intellekt (AGI) konsepsiyasından gedir. Bu o deməkdir ki, süni intellekt insanın düşündüyü istənilən problemi öyrənə biləcək. Bu, onu insandan fərqləndirməyəcək. İnsanın güclü və zəif tərəflərini təhlil edərək onun rəqibinə çevriləcək.

***PÜNHAN***
***XQ***

**Hava**

# Yağış, külək və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 16-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 25-29°, dağlarda gecə 10-15°, gündüz 15-19° isti olacaq.

***Qəzənfər QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov "Ağcabədi Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin direktoru Təranə Məmmədovaya atası

**CABBAR CABBARZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Tibb Universitetinin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevə əzizi

**MANSUR İBAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3645
SİFARİŞ 1767
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00